

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"10 oğlum olsa, onunu da vətənə qurban verərdim"**



8

SƏS
№ 187 (6870)
13 oktyabr 2023-cü il.
Qiymәti 60 qәpik

# "Bir nömrəli məsələ Qarabağ ətrafındakı vəziyyətdir"



2

*Bişkekdə Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə görüşü olub*

# Yaxın Şərqdə nə baş verir?



5

**YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Nepalda səfərdədir**

2

**Rusiyalı ekspert: "Azərbaycandan öyrəniləcək çox şey var"**



7

**Füzuli yeni düzənin ahəngində**



10

**"Mənzil bazarında qiymət artımları müşahidə olunub"**



16

**Psixologiyanı pozan psixoloqlar**



9

# “Bir nömrəli məsələ Qarabağ ətrafındakı vəziyyətdir”

*Bişkekdə Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə görüşü olub*





***Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 12-də Qırğız Respublikasına səfərə gəlib. Bişkek şəhərinin “Manas” Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi Qırğızıstan Nazirlər Kabinetinin sədri - Prezident Administrasiyasının rəhbəri Akılbek Japarov və digər rəsmi şəxslər qarşılayıblar.***



Dünən Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub.

**Prezident Vladimir Putin:** Hörmətli İlham Heydər oğlu, Sizi görməyimə çox şadam. Biz sonuncu dəfə Sizinlə telefonla danışmışdıq. Əlbəttə, açıq demək lazımdır ki, burada bir nömrəli məsələ Qarabağ ətrafındakı vəziyyətdir. Bizim başqa gündəliyimiz də var, o, kifayət qədər genişdir. Təklif edirəm ki, işimizi aşağıdakı kimi quraq: onda biz ikinci hissədən başlaya bilərik, həmkarlarımıza öz fikirlərini söyləməyə, danışmağa imkan verək. Sonra bir daha üzüzə qalaq və söhbət edək, məsələlərin bütün kompleksi, o cümlədən belə desək, həssas məsələlər üzrə danışaq.

**Prezident İlham Əliyev:** Vladimir Vladimiroviç, sağ olun. Sizi yenidən görməyimə şadam. Sizin də qeyd etdiyiniz kimi, biz bu yaxınlarda söhbət etmişik. Sevindirici haldır ki, Siz Qırğızıstana dövlət səfəriniz çərçivəsində görüşmək üçün vaxt tapdınız. Əslində, məsələlər çoxdur. Hesab edirəm ki, Sizin təklifiniz tamamilə məntiqlidir. Biz həmkarlarımızla ikitərəfli gündəliklə bağlı danışacağıq, həm də bizim danışmağa mövzularımız çoxdur. Bu ilin həm əmtəə dövriyyəsi, həm sənaye kooperasiyası, həm də nəqliyyat sahəsində əməkdaşlıq üzrə nəticələri olduqca yaxşıdır. Çoxlu layihələr var. Sonra isə regional mövzulara və təhlükəsizlik məsələlərinə keçərik. Görüşə görə bir daha təşəkkür edirəm.

**Prezident Vladimir Putin:** Sağ olun.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafından, xüsusilə ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olundu.

Regionlararası əməkdaşlıq məsələsinə toxunularaq, Azərbaycanın Rusiyanın 70 regionu ilə uğurlu əməkdaşlığı qeyd edildi, bu xüsusda mütəmadi əsasda keçirilən regionlararası forumun vacib platforma olduğu bildirildi.

Söhbət zamanı Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafından, onun potensialının genişləndirilməsindən və bütövlükdə həm dəmir yolu, həm də avtomobil yolları vasitəsilə yükdaşımaların həcminin bu marşrut boyunca artmasından məmnunluq ifadə olundu.

Humanitar sahədə əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, bu baxımdan Azərbaycanda rus dilinə qayğı, xeyli sayda ali və orta təhsil müəssisəsində rus dilinin tədrisi qeyd edildi. Söhbət zamanı kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsinin önəminə də toxunuldu.Görüşdə Azərbaycan ilə Rusiya arasında hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinin vacibliyi qeyd olundu.

# Rusiyalı ekspert: “Fransa Nigeri Ermənistanla əvəzləməyə çalışır”

***Azərbaycan güc yolu ilə öz maraqlarının tam şəkildə həyata keçirilməsini təmin etdi, eyni zamanda, öz qalib ölkə nüfuzunu təsdiqləmiş oldu, bu isə müasir dünyada olduqca zəruridir. AZƏRTAC xəbər verir ki, bu fikri Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov “Qarabağ münaqişəsinin tam başa çatmasından sonra Cənubi Qafqazın inkişafı” adlı onlayn görüşdə bəyan edib.***



“Bu gün beynəlxalq institutların böhran keçirməsi ucbatından çoxlu sayda ölkənin hərbi resurslara müraciət etməyə məcbur qaldığı bir şəraitdə, Prezident İlham Əliyev zəfərin simvollarından biridir. Tam qələbənin əldə edilməsi indi bütün dünyada zəruri sayılan təcrübədir”, -deyə o bildirib.

Ekspertin fikrincə, hazırda dünyada geosiyasi vəziyyət kəskin şəkildə dəyişib və Cənubi Qafqazda ”müxtəlif layihələrin yarışı” gedir. S.Markov qeyd edib: ”Bir neçə variant var. Bunlardan biri Azərbaycan, Gürcüstan və Ermənistanın, həmçinin Cənubi Qafqazla həmsərhəd olan Rusiya, Türkiyə və İranın daxil olduğu ”3+3” formatıdır. Onlar təhlükəsizlik tədbirləri və iqtisadi əməkdaşlıq barədə razılığa gəlirlər”.

Onun fikrincə, bu formatda bölgənin bütün dövlətləri üçün faydalı olacaq vahid iqtisadi məkanın yaradılması müzakirə edilə bilər. “Bu, biri Zəngəzur olan bir neçə regional nəqliyyat dəhlizinin açılması əsasında mümkündür”, – deyə ekspert bəyan edib.

Politoloq, həmçinin qeyd edib ki, xarici aktorlar, ilk növbədə Fransa bu gün Cənubi Qafqaz ərazisinə daxil olmağa çalışır. ”Bu, Fransanın Nigeri Ermənistanla əvəzləmək cəhdidir. Hazırda Ermənistanda Amerika hərbi bazasının yaradılması məsələsi müzakirə olunur”, - S. Markov əlavə edib.

## YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Nepalda səfərdədir

Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) dəvəti əsasında Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Nepal Federal Demokratik Respublikasına səfər edib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri 13-16 oktyabr tarixlərində Nepal Kommunist Partiyasının (UML) ev sahibliyi ilə bu ölkənin paytaxtı Katmanduda keçiriləcək ICAPP Daimi Komitəsinin 40-cı iclasında və Asiya-Avropa Siyasi Forumunun (AEPF) 5-ci iclasında iştirak edəcək.



# "İlham Əliyev 20 ildə Azərbaycanı öz tarixinin ən güclü səviyyəsinə çatdırıb"

***Dünən ölkə parlamentinin xüsusi iclası keçirildi. İclasda İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Milli Məclisin bəyanatı qəbul olundu. Bəyanatda deyilir:***

Ümummilli Liderimiz Heydər Əliyevin təməlini qoyduğu inkişaf strategiyasını yeni çağırışlar şəraitində layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev heyrətamiz şəxsi keyfiyyətləri, xalq və dövlət qarşısında müstəsna xidmətləri ilə yeni tarixi dövrün milli lideri səviyyəsinə yüksəlmişdir. Onun rəhbərliyi ilə 20 il öncə həyata keçirilməyə başlanan uzaqgörən daxili və xarici siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarmışdır. İlham Əliyevin siyasət sənətinin incəliklərinə dərindən bələdliyi, fenomenal liderlik qabiliyyəti və yaradıcı dövlətçilik təfəkkürü, yenilməz əzmi və iradəsi ölkəmizin müasir simasını müəyyənləşdirməklə yanaşı, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini kökündən dəyişmişdir. Milli və dövlətçilik maraqlarımızın qorunması və irəli aparılması, ölkəmizin potensialının artırılması üçün görülən ardıcıl tədbirlər Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə və regional güc mərkəzinə çevirmişdir.

Ölkə iqtisadiyyatında sürətli və davamlı inkişaf dövrü yaşanmışdır. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəhəng transmilli layihələr qlobal iqtisadiyyatda mühüm rol oynayır. Energetika sektorunda əldə edilən nailiyyətlər nəinki ölkəmizin enerji müstəqilliyini təmin etmiş, həm də Avrasiyanın energetika xəritəsini dəyişdirmişdir. Hazırda Azərbaycanın bərpaolunan enerjinin istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində iş aparılır.

Çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanın iqtisadi mənzərəsini daha da zənginləşdirmişdir. Ölkəmiz Avropa ilə Asiyanı bir-birinə sıx bağlayan nəqliyyat-logistika mərkəzinə çevrilmişdir. Qeyri-neft sektorunun, xüsusən kənd təsərrüfatının, informasiya texnologiyalarının və turizmin inkişafı dayanıqlı iqtisadi tərəqqi amillərindən biri olmuşdur.

2013-cü ildə ilk peykinin buraxılmasından sonra Azərbaycan kosmik klubun üzvü olmuşdur və bu gün kosmik fəzanın istifadəsi sahəsində fəaliyyətini 3 peyklə davam etdirir. Ölkəmizin kosmik strategiyası uzunmüddətli perspektivə yönəlmişdir və dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Həyata keçirilən əsaslı islahatlar dövlət idarəçiliyi sistemini müasir tələblər səviyyəsində qurmağa imkan vermişdir. Ölkənin siyasi həyatı müasir çağırışlara uyğunlaşdırılmış, çoxpartiyalı sistem təkmilləşdirilmişdir.

İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası cəmiyyətin siyasi həyatında önəmli rol oynayır. Digər siyasi qüvvələrin, o cümlədən müxalif partiyaların sərbəst fəaliyyəti üçün hüquqi əsaslar təkmilləşdirilmişdir. Milli-mənəvi dəyərlərin qorunması, elm və təhsilin, mədəniyyət və incəsənətin inkişafı sahəsində əməli addımlar atılmışdır.

Azərbaycanda qanunun aliliyi təmin edilmiş, insan hüquqlarının və azadlıqlarının qorunması dövlətin ali məqsədinə çevrilmiş, vətəndaş cəmiyyətinin inkişafına əlverişli şərait yaradılmışdır. Həyata keçirilən düşünülmüş tədbirlər sayəsində ölkəmiz dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Azərbaycanın dünyaya təqdim etdiyi demokratik cəmiyyət nümunəsi etnik mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verilməsinə, bütün xalqların mədəni sərvətlərinin, müxtəlif dinlərə etiqad edən insanların mənəvi dəyərlərinin qorunmasına və inkişafına əsaslanır.

Müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələrini bir araya gətirən dünya və Avropa miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsi ənənə halını almışdır. Bakı nüfuzlu beynəlxalq toplantılara, humanitar forumlara, mədəniyyətlərarası dialoq məclislərinə, böyük idman yarışlarına evsahibliyi edir.

Hər bir azərbaycanlının Prezidenti olmağı bacaran İlham Əliyev Azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları naminə ölkədə milli həmrəyliyin möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayır. Sayına və intellektual potensialına görə dünyanın qüdrətli xalqları ilə bir sırada dayanan Azərbaycan xalqının mütəşəkkil qüvvə kimi formalaşmasının dəstəklənməsi üçün görülən işlərin miqyası ildən-ilə genişlənir. Dünya azərbaycanlılarının bir-biri ilə və tarixi Vətənlə əlaqələrinin güclənməsinə, diaspor təşkilatlarının formalaşmasına, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan soydaşlarımızın hüquq və mənafelərinin, təhlükəsizliyinin, milli kimliyinin qorunmasına, onların inkişafına, Azərbaycan dilini, ənənələrini və mədəniyyətini qoruyub saxlamasına, dəfələrlə soyqırımına və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpasına və zorla tərk etməyə məcbur olduqları ata-baba torpaqlarına qayıtmasına köməkgöstərilməsi dövlət siyasətinin ayrılmaz tərkib hissəsini təşkil edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının xarici siyasət konsepsiyasının həyata keçirilməsi sahəsində parlaq nailiyyətlər əldə edilmişdir. Bir çox dünya dövlətləri ilə səmərəli əməkdaşlıq əlaqələri qurulmuş, beynəlxalq təşkilatlar çərçivəsində fəal iş aparılmışdır. 2012–2013-cü illərdə dövlətimizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük uğurlardan biri olmuşdur.

Azərbaycanın beynəlxalq nüfuzunu göstərən digər mühüm bir hadisə dünyanın BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatının yekdil qərarı ilə 2019–2022-ci illərdə dövlətimizin bu quruma sədr seçilməsi və yenidən yekdil qərarla sədrlik müddətinin daha bir il uzadılması olmuşdur. Hərəkata sədrlik dövründə Prezident İlham Əliyev ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorumuşdur. 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması Azərbaycanın uğurlu sədrliyinin nəticələri olmuşdur.

Prezident İlham Əliyevin irəli sürdüyü milli təhlükəsizlik konsepsiyasının bütün istiqamətlərində müsbət nəticələr əldə edilmişdir. Ən yüksək standartlara cavab verən silahlı qüvvələr formalaşdırılmışdır. Doğma torpaqlarını işğaldan azad etməyə hazır olan vətənpərvər gənc nəsil yetişdirilmişdir. Bütün bunlar Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsi barədə Ulu Öndər Heydər Əliyevin vəsiyyətinin yerinə yetirilməsinə şərait yaratmışdır.

2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik məharəti ilə idarə etdiyi Azərbaycan Silahlı Qüvvələrinin hərbi qələbəsi xalqımızın qəhrəmanlıq salnaməsində yeni şanlı səhifə açdı. Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 8 Noyabr Zəfəri sayəsində işğalçı Ermənistan təslim olmağa məcbur edildi, tarixi ədalət və dövlətimizin ərazi bütövlüyü bərpa olundu. Azərbaycanın əzəli tarixi torpaqları olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi son iki yüz ilə yaxın dövrdə xalqımızın məruz qaldığı torpaq itkiləri və etnik təmizləmələr silsiləsinə son qoydu, xalqımıza düşmən kəsilmiş dünya erməniliyinə sarsıdıcı zərbə endirdi.

Ermənistanın davam edən hərbi-siyasi təxribatlarına son qoyulması məqsədi ilə 2023-cü il sentyabrın 19-20-də müzəffər Ali Baş Komandanın məharətli rəhbərliyi ilə Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri xalqımızın milli ruhunun yenilməzliyini bir daha nümayiş etdirdi. Azərbaycan Ordusunun qəhrəmanlığı və fədakarlığı sayəsində erməni silahlı dəstələri tərk-silah edildi, kriminal xunta rejiminin fəaliyyətinə son qoyuldu, dövlətimizin suverenliyi onun bütün ərazisində bərpa edildi.

Qarabağı könüllü tərk etmək istəyən erməni sakinlərin ölkə ərazisindən təhlükəsiz və rahat çıxışına şərait yaradılmışdır. Qarabağda qalan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün lazımi tədbirlər görülür. Ermənistanla sivil dövlətlərarası münasibətlər qurulması məqsədi ilə Azərbaycanın irəli sürdüyü şərtlər əsasında sülh danışıqları davam etdirilir.

Hazırda işğaldan azad edilmiş torpaqlarda Prezident İlham Əliyevin irəli sürdüyü strateji yol xəritəsinə əsasən bərpa və quruculuq işləri geniş vüsət almışdır. Məcburi köçkünlər mərhələ-mərhələ doğma yurdlarına qaytarılır. İnamla söyləmək olar ki, Qarabağın və Şərqi Zəngəzurun dirçəlişi ilə bağlı bütün layihələr uğurla başa çatdırılacaq və bu bölgələr Azərbaycanın dilbər guşələrinə çevriləcəkdir.

Siyasi lider öz fəaliyyəti ilə zamanca qısa bir dövrü əhatə edir, milli lider isə uzunmüddətli perspektiv üçün ölkəsinin inkişafının optimal istiqamətlərini müəyyənləşdirir. Azərbaycan Respublikasının Milli Məclisi əmindir ki, Prezident İlham Əliyevə xas olan siyasi bəsirət və səriştə Azərbaycanın müstəqillik yollarında bundan sonra da inamla irəliləməsini təmin edəcəkdir.

Milli Məclis Vətənimizin və xalqımızın bu günü və sabahı naminə dəyərli fəaliyyətində dövlət başçısına yeni böyük uğurlar arzulayaraq, onun uzaqgörən daxili və xarici siyasətini, həmişə olduğu kimi, fəal surətdə dəstəkləyəcəyini, həyata keçirilən quruculuq işlərinin qanunvericilik bazasını möhkəmləndirmək və təkmilləşdirmək üçün öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyini bəyan edir.

***Elçin Bayramlı***
***Parlament müxbiri***

# Zəfər zirvəsindən 20 ilə baxış

## 15 OKTYABR 2003-CÜ İL - Xalq sözü imzası qədər dəyərli olan Liderə səs verməkdə yanılmayıb

***Bu gün çox mühüm bir siyasi hadisələrin astanasındayıq. Dünyanın templi ictimai-siyasi həyatı xalqımız və dövlətçiliyimiz üçün böyük əhəmiyyət kəsb edən tarixi hadisə –15 oktyabr 2003-cü il. Azərbaycan xalqı ilk dəfə 2003-cü ildə cənab İlham Əliyevə səs verməklə Heydər Əliyev siyasi kursunun davamına, xoşbəxt və firavan yaşayışının etibarlı şəkildə təmin edilməsinə dəstək verdi. Bu, ilk növbədə, xalqın müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevə olan inamının göstəricisi idi.***



Çünki dahi şəxsiyyət seçkilərdən öncə - 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət edərək tam əmin idi ki, müstəqil Azərbaycanın işıqlı gələcəyi üçün müəyyənləşdirdiyi inkişaf konsepsiyasını məhz cənab İlham Əliyev uğurla davam etdirərək reallığa çevirə bilər: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ümummilli liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə onun layiqli varisi İlham Əliyevi dəstəkləyərək səsvermə hüququna malik olan vətəndaşların 71.5%-i Yeni Azərbaycan Partiyasının namizədi, partiya Sədrinin birinci müavini, Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev cənablarına səs verməklə bir daha xalqın düzgün seçim etdiyini təsdiqlədi. Azad, ədalətli və şəffaf şəkildə keçirilən seçkilərdə İlham Əliyev ümumi seçicilərin 2 milyon 438 min 787 nəfərin səsini qazanaraq, yəni 76.84% faizdən çox səs toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.

### BU GÜNÜN ZİRVƏSİNDƏN ÖTƏN 20 İLƏ - AZƏRBAYCANIN MİSİLSİZ UĞURLARINDA PREZİDENT İLHAM ƏLİYEV İMZASI

Bəli, bu günün zirvəsindən dönüb ötən 20 ilə nəzər saldıqda Azərbaycanın nə qədər möhtəşəm inkişaf mərhələsi yaşadığının canlı şahidi oluruq. Həmin dövrü Azərbaycanın yeni və parlaq inkişaf mərhələsi, Prezident İlham Əliyevin isə onun memarı adlandırılması üçün bütün əsasların olduğunu indi hamı birmənalı şəkildə etiraf edir. Çünki həyat sübuta yetirdi ki, Azərbaycan xalqı 2003-cü ildə tariximizin yeni mərhələsinin ən mühüm qərarını qəbul edərək, ölkəyə Heydər Əliyev miqyasında siyasətçidən sonra yeni lider və prezident seçərkən özünə xas müdrikliyinə əsaslanan yeganə düzgün seçimini edə bilmişdir. Bu yeni əsrin Qalib Lideri Prezident İlham Əliyev cənablarıdır.

Bəli, ulu öndərin başa çatdıra bilmədiyi taleyüklü məsələlər bu gün reallaşmaqdadır. 2003-cü ildən bu günə qədər Azərbaycan sürətli inkişaf dövrü yaşayır və ümummilli lider Heydər Əliyev siyasəti davam etdirilir. Və bu 20 il ərzində, ulu öndər Heydər Əliyevin demokratik-hüquqi və dünyəvi dövlət quruculuğuna yönəldilmiş müstəqillik siyasətini qətiyyətlə həyata keçirən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələri həyata keçirildi.

Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. 5 ildə gördüyü işlər Onun 2008-ci il 15 oktyabr prezident seçkilərində 88,73 faiz səs qazanmasına imkan yaratdı. 2013 və 2018-ci il prezident seçkilərində də qələbəsini təkrarlaması hər bir vədini konkret əməli işdə təsdiqləməsi ilə şərtləndirdi. Xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır. Bəli, bu gün Azərbaycan dünyada güclü, qüdrətli ölkə olaraq hər bir sahədə sözünü deyir. Məhz Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, dünyada beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycan Prezidentinin bu məsələdəki birmənalı mövqeyi təsdiqlədi ki, Qarabağın Azərbaycandan ayrılmaz mexanizmi yoxdur.

Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü ilə kimi hərəkata 4 il sədrlik etməklə bir ilkə imza atıb. Belə ki, ölkəmizin son üç ildə istər İkinci Qarabağ müharibəsi, istərsə də COVID-19 pandemiyası ilə mübarizə dövründə qazandığı uğurlar, atdığı addımlar ona olan etimadın daha da yüksəlməsini şərtləndirdi. atdığı addımlar ona olan etimadın daha da yüksəlməsini şərtləndirdi.

Ordu quruculuğu məsələlərinin dövlət siyasətinin prioriteti kimi müəyyən olunması illər sonra öz nəticəsini göstərdi və Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi. 2003-cü ildən etibarən Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Qarabağ münaqişəsinin aqibəti ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi. Azərbaycanda güclü müdafiə sənayesi quruldu. Qısa müddət ərzində görülmüş işlər sayəsində Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer aldı.

### MƏĞRUR, YENİLMƏZ XALQ OLMAĞIMIZLA FƏXR EDİRİK

Bu gün Azərbaycan regional inkişafın aparıcı qüvvəsinə, dünya birliyinin fəal üzvünə çevrilib. Azərbaycanın iştirakı olmadan bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi mümkünsüzdür. İqtisadi müstəqillik Azərbaycanın siyasi müstəqilliyini şərtləndirdi. Dövlətimizin başçısı İlham Əliyev 44 günlük müharibə dövründə xalqa müraciətlərində, eyni zamanda, 10 noyabr Zəfər tariximiz münasibətilə xalqa təbrikində Qələbəmizdə iqtisadi və siyasi müstəqilliyin rolunu da xüsusi qeyd etmişdir. Azərbaycanın beynəlxalq münasibətlər sistemində möhkəmlənən mövqeyi, ən əsası Dağlıq Qarabağ münaqişəsinin həlli üçün möhkəm hüquqi bazanın mövcudluğu Azərbaycan Ordusunun döyüş meydanında qələbəsinə yol açdı. Azərbaycan dünyaya sübut etdi ki, beynəlxalq hüququn norma və prinsipləri mövcuddur və onların icrası üçün vahid mexanizm olmalıdır. Bu Qələbə dünyanın yeni xarici siyasətinin formalaşmasında, yeni reallıqların yaradılmasında əhəmiyyətli rol oynadı.

Prezident İlham Əliyev Vətən müharibəsi dövründə Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində "Yəqin ki, Qarabağı azad etmək rəhmətlik atanızın vəsiyyətidir. Vəsiyyətini də yeri gəlmişkən Sizdən öyrənmək istərdik. Vəsiyyətini hazırda həqiqətən yerinə yetirirsiniz. Sizi də, Azərbaycan xalqını da Türkiyə xalqı adından təbrik edirik. Atanızın vəsiyyəti barədə nə söyləmək istəyirsiniz" sualını belə cavablandırmışdır ki, hər zaman çalışmışam ki, atamın yoluna sadiq olum. 2003-cü ildə ilk dəfə Azərbaycan xalqı mənə etimad göstərəndə seçkilərdən əvvəl demişdim ki, əgər siz mənə bu inamı, etimadı göstərsəniz, Heydər Əliyev siyasətinə sadiq olacağam, bütün istiqamətlər üzrə onun yolu ilə gedəcəyəm: «Şadam ki, sözümə sadiq oldum, sözümü tutdum. Bu gün Azərbaycanın sürətli və uğurlu inkişafı, beynəlxalq müstəvidə böyük hörmətə malik olması, ölkə daxilində sosial, iqtisadi, digər problemlərin həlli, böyük layihələrin həyata keçirilməsi, əlbəttə ki, Heydər Əliyev yolunun davamıdır. Təbii ki, dünya dəyişir. Dünyadakı güclər nisbəti də dəyişir. Bugünkü dünya 2003-cü ildəki dünya ilə əlbəttə ki, müqayisə edilə bilməz. Ancaq bizim strateji hədəflərimiz dəyişməz olaraq qalır. O da müstəqilliyi möhkəmləndirmək, müstəqil siyasətə sadiq olmaq, heç vaxt heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək, öz qürurumuzu saxlamaq, qorumaq və ərazi bütövlüyümüzü bərpa etməkdir. Yəni, qısa desəm, atamın vəsiyyəti bundan ibarətdir."

### SON 20 İL – QALİBİN MƏĞLUB ÜZƏRİNDƏ QƏLƏBƏSİNİN QALİB LİDERİ İLHAM ƏLİYEV

Dövlətimizin başçısı həmişə bildirir ki, ərazi bütövlüyümüzün bərpası bizim üçün bir nömrəli vəzifədir. Buna görə də son 20 il Prezidentlik fəaliyyəti ərzində Ali Baş Komandanımız "bir qarış torpağımızı belə heç kəsə verən deyilik" xəbərdarlığının bu gün Azərbaycan xalqı, bütün dünya bir daha gördü ki, Qarabağ Azərbaycandır!

Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan bu missiyanı da şərəflə yerinə yetirdi. Cənab İlham Əliyev daim bildirirdi ki, mən nəyi nə zaman etmək lazım olduğunu bilirəm. Ölkə Prezidenti bütün təzyiqlərə baxmayaraq qətiyyətli mövqeyindən bir addım da belə geri çəkilmədi, işğalçı Ermənistanın baş nazirinin irəli sürdüyü 7 şərtə cavab olaraq yalnız bir şərti qoydu ki, o da torpaqlarımızdan çıxmaları idi. 300-ə qədər yaşayış məntəqəsi, 5 şəhər, 4 qəsəbə, xeyli sayda strateji yüksəkliklər işğaldan azad edildikdən sonra diz çökən Ermənistan çıxılmaz vəziyyətdə qaldı. Ya tamamilə məhv olmalı idi, ya da Bəyanata imza atıb məğlubiyyətini etiraf etməli idi. Noyabrın 10-da imzalanan Bəyanat Azərbaycanın 30 ilə yaxın dövrdə gözlədiyi anın dünyaya təqdimatı oldu.

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: «Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Bəli, bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. 44 günlük Zəfər Qələbəsi «Qarabağ Azərbaycandır və nida işarəsi»-söyləyən Prezidentimiz son 20 ildə - hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdiyinin sübutudur.

Artıq Heydər Əliyev siyasətinin uğurları, ən əsası Ümummilli Liderin 1 oktyabr 2003-cü il müraciətində əksini tapan çağırışların aydın ifadəsi bugünkü reallıqlarımızdır. Bu gün artıq Dağlıq Qarabağ adlı ərazi vahidinin olmadığını böyük qürur hissi ilə qeyd edirik. Bu gün ölkəmizin həyatında yeni mərhələ - işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri uğurla davam edir. Qarabağımız cənnət məkana çevrilir. Torpaqlarımız sahibinə qayıtdıqları, biz də o torpaqlara qovuşduğumuz üçün qürurluyuq. Zəfərin mübarək, Azərbaycan! Zəfərin mübarək, Azərbaycan xalqı! Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini yerinə yetirdiyi üçün xoşbəxtdir.

Beləliklə də, 2003-2023-cü il tariximizin inkişafla başlayıb zəfərlə davam edən ən qüdrətli mərhələsi olmaqla Azərbaycan bundan sonra da növbəti illərdə də möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının uzaqgörən siyasəti və müdrik rəhbərliyi sayəsində inkişaf edəcək və çiçəklənəcək.

**RƏFİQƏ KAMALQIZI**

# Yaxın Şərqdə nə baş verir?



**_İsraildə müharibənin 6-cı günündə ölənlərin sayı 1300 nəfərə çatıb, 3700 nəfər yaralanıb. Hərbçilər arasında isə 220 nəfər həlak olub. Qəzza zolağında ölənlərin sayı 1200, yaralılar isə 5600 nəfərdir. İsrail ordusunun sözçüsü HƏMAS-ın uşaqları qətlə yetirməsi ilə bağlı məlumatı təsdiqləyib. BMT-nin Yaxın Şərq üzrə Fələstinli Qaçqınlar üzrə Agentliyinin Qəzza zolağında öldürülən əməkdaşlarının sayı 11 nəfərə çatıb._**

## İtkilər, məhbuslar və evakuasiya





İsrailin energetika naziri İsrael Katz bildirib ki, məhbuslar azad edilənə qədər Qəzzanın blokadası davam edəcək. BMT-nin məlumatına görə, Qəzza zolağının evlərini tərk edən sakinlərinin sayı gündə 75 min nəfər artaraq 338 min nəfərə yaxındır. HƏMAS-ın Əl-Qəssam Briqadaları iki uşaqlı əsir israilli qadının azad edildiyini əks etdirən video yayımlayıb. İsrailin səhiyyə naziri Moşe Arbel ictimai səhiyyə sisteminə HƏMAS üzvlərini müalicə etməyi qadağan edən bir direktiv verib.

### Hərbi əməliyyatların gedişi

İsrail Müdafiə Qüvvələri Fələstinin Həmas hərəkatının bir hissəsi olan elit Nuxba bölməsinə hücum edib. Ynet xəbər verir ki, Fələstin İslami Cihad qruplaşmasının yüksək rütbəli lideri Musa Nasir Qəzza zolağında öldürülüb. İsrail ordusunun sözçüsü Daniel Hagari isə bildirib ki, İsrail ordusu oktyabrın 7-də Həmas silahlılarının mümkün hücumu ilə bağlı kəşfiyyat siqnalları alıb. İsrailin müdafiə naziri Yoav Qalant HƏMAS-ın İsrailə hücumu zamanı minlərlə terrorçunun sərhədi keçdiyini bildirib.



### Dünyanın reaksiyası

NATO-nun müdafiə nazirləri HƏMAS-a qarşı müharibədə İsraillə həmrəy olduqlarını bildiriblər və ölkənin terror hücumlarından “proporsional müdafiə” hüququnu tanıyıblar. Reuters xəbər verir ki, ABŞ dövlət katibi Entoni Blinken İsrailə gəlib. Səfər Vaşinqtonun İsraillə həmrəyliyini nümayiş etdirmək üçün Yaxın Şərq turunun bir hissəsidir. Oktyabrın 13-də Fələstin prezidenti Mahmud Abbasla Blinken arasında görüş planlaşdırılır. Axios xəbər verir ki, Ukrayna prezidenti Vladimir Zelenski İsrailə səfər etməyi planlaşdırır.

Reuters-in xəbərinə görə, Misir hakimiyyəti ABŞ və digər ölkələrlə Qəzza zolağına humanitar yardımın çatdırılmasını müzakirə edib, lakin qaçqınlar üçün təhlükəsiz dəhlizlərin yaradılması ideyası rədd edilib.

### Xarici media: HƏMAS-ı kim dəstəkləyə bilər?

Türkiyə mediası:

İsrail soyqırım edib. Qəzzada nə ümid var, nə də qaçış! İsrail quru əməliyyatına başlayacaqmı? Qəzzada son vəziyyət dözülməzdir. HƏMAS-ın oktyabrın 7-də başlatdığı “Əqsa tufanı” əməliyyatından sonra İsrail Qəzzada mülki yaşayış məntəqələrini hədəfə alıb. 6 gündür gecə-gündüz fərq qoymadan bombaların yağdığı Qəzzada nə su, nə də işıq var. Bölgədən dəhşətli fotolar gələrkən, İsraildən yeni açıqlamalar gəldi. Quru əməliyyatı olacaqmı? Son dəqiqə məlumata görə, Rəfah sərhəd qapısının humanitar yardım üçün açıldığı öyrənilib. Hücumlarda bir Türkiyə vətəndaşının da həyatını itirdiyi öyrənilib.

İsrail günlərdir Qəzzaya ölüm yağışı yağdırır. Bölgəyə işıq və suyun belə verilmədiyi məlum olsa da, dünya baş verənlərlə “üç meymun” oynayır. Qəzzada Səhiyyə Nazirliyindən edilən son dəqiqə şərhində artıq kritik mərhələnin keçdiyi bildirilir. Dərmanların, tibbi ləvazimatların və yanacağın tezliklə tam tükənəcəyi qaçılmazdır.

Ardı Səh. 6



# Yaxın Şərqdə nə baş verir?

Əvvəli-Səh-5

İsrailin hava hücumlarında yaralananların müalicəsi üçün heç bir yer olmadığını xatırladan nazirlik, İsrail qüvvələrinin elektrik, su və yanacağa tətbiq etdiyi embarqonunun yaralıların və xəstələrin həyatını təhlükəyə atdığını vurğulayıb. Bildirilib ki, tibbi ləvazimatların təhlükəsiz keçidinin təmin edilməsi və yaralıların tez bir zamanda daşınması mühüm əhəmiyyət kəsb edir.

HƏMAS-ın başlatdığı əməliyyatdan sonra İsrail Qəzzada mülki yaşayış məntəqələrini hədəfə alıb. 6 gündür İsrailin şiddətli bombardmanları altında olan Qəzzada humanitar fəlakət yaşanarkən, müharibənin daha bir nöqtəyə sıçradığı xəbəri beynəlxalq gündəmə bomba kimi düşüb. Suriya dövlət televiziyasının son dəqiqə açıqlamasına görə, İsrail Dəməşqi vurub.

ABŞ dövlət katibi Entoni Blinken İsrailə eniş edib. Yerli "Kan" radiostansiyasının məlumatına görə, o, əvvəlcə İsrailin baş naziri Binyamin Netanyahu ilə görüşmək üçün Qüdsə gedəcək. Xarici media yazır ki, Vaşinqton münaqişədə İsraili tam dəstəkləyir. Amerika prezidenti Co Bayden bunu oktyabrın 11-də Vaşinqtonda yəhudi liderlərinin dəyirmi masasında təkrarlayıb.

ABŞ rəsmisi əvvəllər digər dövlətləri və ya silahlı qrupları münaqişədə iştirakdan çəkindirmək üçün bir neçə ərəb ölkəsinin rəsmiləri ilə danışıqlar aparıb. Dövlət katibi İordaniyaya da səfər etməyi planlaşdırır və ABŞ rəsmiləri səfərin uzadıla biləcəyini bildiriblər. Nəşr xatırladır ki, Vaşinqton artıq İsrailə hərbi yardım edib. Söhbət amerikalı döyüşçülərdən gedir. Bölgədəki digər güc isə münaqişədə vasitəçilik etməyə çalışan, ABŞ və digər ölkələrlə əlaqə saxlayan Misirdir. Reuters-in qeyd etdiyi kimi, Qahirə Qüds və Vaşinqtonla öz keçid məntəqəsi vasitəsilə humanitar yardım və yanacağın çatdırılmasını açmaq üçün fəal danışıqlar aparır. Lakin Misir Qəzzadan mülki şəxslərin qaçması üçün dəhlizlərin yaradılması təkliflərini rədd edib. Nəşrin mənbəsinin sözlərinə görə, fələstinlilərin anklavı tərk etməsi Qahirə üçün ciddi mənfi nəticələrə səbəb ola bilər.

Pekin də münaqişənin sülh yolu ilə həllini fəal şəkildə təşviq etməyə çalışır. "The New York Times" yazır ki, Çin vasitəçi qismində Misirlə işləməyə hazır olduğunu nümayiş etdirir. Bununla belə, ölkə hökuməti İsrailə kifayət qədər dəstək vermədiyinə görə ABŞ tərəfindən tənqid edilib.

The Wall Street Journal iddia edir ki, İran HƏMAS rəhbərliyinə hücumu planlaşdırmağa kömək edib. Nəşr yazır ki, İranın elit bölməsinin zabitləri hava, quru və dəniz əməliyyatlarını inkişaf etdirmək üçün təşkilat üzvləri ilə birlikdə çalışıblar. Məqsəd İsrailə hər tərəfdən təhlükə yaratmaq olub.

Lakin İran və HƏMAS-ın birgə planlarının mümkünlüyü The New York Times-ın ABŞ kəşfiyyatındakı mənbələri tərəfindən təsdiqlənmir. Nəşrin həm Amerika, həm də Yaxın Şərqdəki bir neçə həmsöhbəti nə Vaşinqtonun, nə də Qüdsün bunun birbaşa sübutunu tapa bilmədiklərini bildirib. Eyni zamanda, qəzet İranın münaqişənin gərginləşməsində maraqlı olduğunu qeyd edir.

"Əl-Cəzirə"nin məlumatına görə, qarşıdurmanın ən çox ehtimal olunan yeni iştirakçısı Livan, daha dəqiq desək, "Hizbullah" qruplaşması ola bilər. Son günlər qarşılıqlı raket hücumları nəticəsində qruplaşmanın ən azı üç üzvü həlak olub.

## Kissincer nə deyir?

ABŞ-ın keçmiş dövlət katibi, alman əsilli Henri Kissincer hesab edir ki, Berlində Fələstinin HƏMAS-ın İsrailə hücumuna dəstək aksiyası miqrasiya siyasətinin nəticəsidir. Kissincer Welt TV-yə deyib: "Tamamilə fərqli mədəniyyətlərə, dinlərə və baxışlara malik bu qədər çox insanı içəri buraxmaq ciddi səhv idi, çünki bu, hər bir ölkədə bunu edən təzyiq qrupu yaradır". Onun sözlərinə görə, HƏMAS "bir növ cəza ilə" üzləşməlidir. Bununla belə, o, regionda münaqişənin genişlənməsi riski barədə xəbərdarlıq edib: digər ərəb ölkələri "ictimai rəyin təzyiqi altında" işə qarışa bilər. Amerikalı diplomat hesab edir ki, Həmas və onun tərəfdarlarının məqsədi "ərəb dünyasını İsrailə qarşı səfərbər etmək və sülh danışıqlarını pozmaqdır".

## NATO-nun 3 tədbiri

Bu arada Brüsseldə üç tədbir keçirilib: NATO müdafiə nazirlərinin görüşləri, Ukrayna müdafiə məsələləri üzrə təmas qrupu (Ramşteyn danışıqları adlanır) və Ukrayna-NATO Şurasının iclası. Onların ilkin olaraq Kiyevi dəstəkləməyə həsr olunmuş gündəliyi cari hadisələr - BalticConnector qaz kəmərinin zədələnməsi və İsraillə HƏMAS arasında münaqişə nəticəsində köklü şəkildə dəyişə bilər. Bununla belə, NATO Rusiyanı Finlandiya və Estoniyaya enerji resurslarının tədarükünə təsir edən təxribatda ittiham etməyib və yəhudi dövlətinə şifahi dəstəkdən o yana keçməyib.

Brüsseldəki danışıqlar, alyans rəsmilərinin onlar haqqında söylədiklərinə əsasən, ilkin olaraq Rusiya Federasiyası ilə Ukrayna arasında münaqişənin yay-payız kampaniyasının aralıq nəticələrinin yekunlaşdırılmasına həsr edilməli idi. Bu, bütün NATO tərəfindən qiymətləndirməni tələb edən hadisələr baş verməsəydi, müdaxilə olmasaydı, mümkün olardı. Birincisi və əsası, əlbəttə ki, İsrailin iştirakı ilə müharibə idi. Kollektiv Qərb ölkələri yəhudi dövlətinə dəstəyin nə qədər uzağa getməli olduğu sualı ilə üzləşdi. Bu həftə baş verən hadisələr göstərdi ki, NATO-nun həm HƏMAS-a qarşı mübarizədə fəal iştirakın tərəfdarları, həm də bunun başqasının münaqişəsi olduğuna inananlar var, alyans bundan uzaq durmalı, yalnız şifahi qəzəblə kifayətlənməlidir. Kiyev Yaxın Şərqdəki vəziyyətin Qərbin Ukraynaya münasibətinə təsir edib-etməyəcəyi ilə maraqlanırdı.

Üç görüşdə iştirakı tələb olunmayan və ümumiyyətlə, gözlənilməyən Ukrayna prezidenti Vladimir Zelenskinin Brüsselə gəlməsi təsadüfi deyil. Məlumdur ki, o, Ramstein formatlı görüşdə çıxışında Rusiya Federasiyası ilə HƏMAS arasında iddia edilən əlaqələr mövzusunu ciddi şəkildə vurğulamışdı. Və danışıqlar başa çatdıqdan sonra o, jurnalistlərə bildirib ki, nazirlər onu əmin ediblər ki, ölkə yardım alıb və bundan sonra da alacaq. Zelenskinin dediyi kimi, "heç kim Ukraynanı tərk etməyəcək". Qərb rəsmiləri də bunun əksini iddia etməyiblər. Pentaqonun rəhbəri Lloyd Ostin Ukraynaya 200 milyon dollar məbləğində yeni yardım paketi elan edib, lakin bu halda söhbət artıq Konqres tərəfindən təsdiqlənmiş maliyyələşdirmədən gedir. Bundan əlavə, Ramstein formatının iştirakçıları ölkəyə hərbi xərclər, o cümlədən hərbi texnikanın saxlanması üçün 147 milyon avro ayıracaqlar. Danimarkanın müdafiə naziri Trols Lund Poulsen Brüsseldə F-16 qırıcılarının Ukraynaya təhvil verilməsi üçün son tarixi - 2024-cü ilin birinci rübünü açıqlayıb. Göründüyü kimi, Danimarka Ukrayna ordusunu bu təyyarələrlə təmin edən ilk NATO üzvü olacaq. Zelenski üç tədbirə ev sahibliyi edən ölkənin mövqeyindən xüsusilə məmnun qalıb.

NATO-nun reaksiyasını tələb edən digər hadisə Finlandiyadan Estoniyaya Baltik dənizinin dibi ilə uzanan BalticConnector qaz kəmərindən qaz sızması xəbəri olub. "Əgər bunun NATO-nun kritik infrastrukturuna qəsdən hücum olduğu sübut olunarsa, bu, əlbəttə, NATO-nun qəti cavabı ilə qarşılaşacaq", - NATO-nun baş katibi Yens Stoltenberq Brüsseldə elan edilib. İclas iştirakçıları çox güman ki, elə həmin gün Finlandiya rəsmilərindən onların ərazi sularında sızma baş verdiyi və araşdırma aparacaqları barədə xəbər alıblar. Təxribatın baş verdiyinə dair tələsik qərar vermək olmaz.

Beləliklə, Avropanın, xüsusən də NATO-nun başı münaqişələrdən ayrılmır. Gah üzv ölkələrdə, gah da Yaxın Şərq kimi həssas bölgələrdə baş verən hadisələrin həllinə çalışır. Amma, ikili standartdan yararlanmaqla. Bu da problemi həll etməkdən çox, daha da dərinləşdirir.

*V.VƏLİYEV*





# Rusiyalı ekspert: “Azərbaycandan öyrəniləcək çox şey var”



*Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko “Moskva-Baku” portalına müsahibəsində İrəvanın siyasətini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.*

**- İqor Yuryeviç, Ermənistanın baş naziri və xarici işlər nazirli MDB Şurasına getməkdən imtina etdi. Bu qərarda nə görürsünüz?**

- Görünür, bu gün MDB Şurasının iclasında iştirak Ermənistan hakimiyyətinin prioritetləri sırasında deyil. Bu, Qarabağ məsələsinin birdəfəlik bağlanması ilə bağlı erməni cəmiyyətinin və erməni siyasi elitasının başına gələn fəlakət fonunda baş verir. Məncə, Ermənistan hakimiyyətinin atdığı addımlar şokun nəticəsidir. Həm də ermənilərin Rusiyaya qarşı ümumi mənfi münasibətdən qopmamaq istəyi. Bütün bunlar onları belə qərarlar verməyə məcbur edir.

Eyni zamanda, Ermənistan baş nazirinin MDB Dövlət Başçıları Şurasının iclasında iştirakdan şəxsən imtina etməsi sırf siyasi və anti-Rusiya xarakterli qərardır. Paşinyan göstərir ki, onun üçün postsovet məkanında inteqrasiya prosesləri və qarşılıqlı fəaliyyət əhəmiyyətsizdir və siyasi prioritet deyil. İrəvanın MDB dövlətlərinin Təhlükəsizlik Orqanları və Xüsusi Xidmət Rəhbərləri Şurasının Bakıda keçirilən iclasında iştirakdan imtina etməsinin də eyni səbəbləri var. Baxmayaraq ki, Paşinyanın onları Azərbaycan paytaxtına göndərmək qərarına gəlməsinin zahirən qeyri-mümkün olduğu aydın idi.

**- Deyirsiniz ki, İrəvanın bu cür addım atmasının səbəbləri Qarabağla bağlı yaranmış vəziyyətlə bağlıdır. Amma çoxları həmişə deyirdi ki, Paşinyanın hakimiyyətə Qərb strukturları Ermənistanı Rusiyadan qoparmaq, respublikanı bir növ “Qərb yuvasına” çevirmək üçün gətiriblər...**

- Düşünmürəm ki, 2018-ci ildə hakimiyyətə gələn Paşinyana belə tapşırıq verilib. Situasiya ilə hakimiyyətə gəldi. Serj Sarkisyanın cəsarəti olsaydı, Paşinyanın hakimiyyətə gəlmək imkanı olmazdı. Bundan əlavə, Ermənistanın siyasi elitası 1990-cı illərdən başlayaraq ardıcıl olaraq deqradasiyaya uğrayıb. 2018-ci ilə qədər isə Ermənistan cəmiyyəti qəti şəkildə “Qarabağ klanı”nı hakimiyyətdə görmək istəmirdi.

Paşinyan “üfüqdə” peyda olanda Ermənistanda hakimiyyət yerlə sürünürdü. Onun qərbyönümlü olması, amerikalıların və avropalıların onunla işləməsi faktı məlum olanda niyə bizim Paşinyana alternativimiz yox idi, Rusiyanın işləyəcəyi biri yox idi, hansı ki, lazımi anda onun əvəzinə səlahiyyətliləri "götürərdi”. Bəlkə də Rusiya bunu etsəydi, hakimiyyətə sağlam düşüncəli, məsuliyyətli, rusiyayönlü siyasətçi gələrdi. Yəqin ki, belə olan halda Ermənistan həm KTMT, həm də MDB çərçivəsində bizim müttəfiqimiz və bütün inteqrasiya proseslərinin iştirakçısı olardı. Bunlar bizim səhv hesablamalarımızdır- Ukrayna və Moldovada olduğu kimi.

Paşinyanın Qarabağı “təslim etmək” üçün hakimiyyətə gəlməsi ilə bağlı populist bəyanatlarla qətiyyən razı deyiləm. Bütün bunlar erməni və ermənipərəst təbliğatçıların axmaq mülahizələridir. Təbii ki, o, Qarabağdan əl çəkmək istəmirdi. Amma hadisələr belə cərəyan etdi. Vəziyyəti dəyişdirən Azərbaycanın hərbi inkişafdakı uğurları oldu. Bəli, Paşinyan sonda Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımalı oldu. Amma nə edə bilərdi? Budur, “Miatsum”un məzarının üstünə xaçkar qoya bilərsiniz. Vəssalam, bütün etirazlara baxmayaraq, məsələ bağlanıb.

**- Yaxşı, o zaman Paşinyanın Qərbi regiona sürükləmək üçün bütün bu müşahidə olunan və artan cəhdlərini necə izah etmək olar? Yoxsa bunu Qərb özü edir, Ermənistanın baş naziri isə bundan ancaq Rusiyaya alternativ kimi istifadə edir?**

- Təbii ki, Qərb bu gün də boş oturmur və Rusiyaya daha da böyük problemlər yaratmağa, o cümlədən onu öz tərəfdaşları ilə üz-üzə qoymağa, onları Rusiyadan qoparmağa cəhd etməkdə davam edir. Bu, Ermənistanın əsas alət kimi seçildiyi Cənubi Qafqazda da baş verir.

Paşinyan sosial tendensiyaları ələ keçirir. Bütün deyilənlərlə birlikdə, bəli, o, Qərbin “məhsuludur”. Amma bu Qərb “məhsulu” ilk növbədə özünü düşünür, başqasının təsiri altına düşürsə, bu sırf siyasi sağ qalmaq məntiqindən irəli gəlir. Mən onun tərəfdarıyam ki, Rusiya-Ermənistan münasibətlərində vəziyyətin kəskin şəkildə pisləşdiyi bu vəziyyətdə belə çıxış yolu məz. Bu, gələcəkdə onun üçün ölümcül ola biləcək xarici siyasət səhvidir.

Qərbin bu gün maliyyəni Ermənistana, Qarabağ ermənilərinə yardıma yönəltməsi əslində cüzi bir şeydir. Paşinyan, məsələn, Zelenskiyə gedən tranşı almır.

**- Bir gün oyanacaqmı ki, Ermənistan yeni Ukraynaya çevrilib?**

- Heç nəyi istisna etmək olmaz, Nikol Paşinyanla milli maraqlarımız baxımından işləməsək, bu, hər an baş verə bilər. Etiraf edək: son illərdə postsovet məkanında apardığımız siyasət uğursuz oldu. Biz dəfələrlə müttəfiqlərin necə tərəfdaşlara, tərəfdaşlardan isə çox vaxt düşmənə, dost olmayan ölkələrə çevrildiyinin şahidi olmuşuq. Bu o deməkdir ki, metodologiya səhv idi. Postsovet məkanı Rusiyanın həyati maraqları zonasıdır. Rusiyanın MDB ölkələrindəyidir. Patruşev Rusiya prezidentinin ən yaxın adamlarından biridir. O, Rusiya dövləti və milli təhlükəsizliyi sistemində əsas mövqe tutur. Onun gəlməsi, Əliyevin onu qəbul etməsi Rusiya ilə Azərbaycan arasında çox vaxt hətta qeyri-rəsmi dostluq münasibətlərinin nümayişidir. Onlar milli maraqların nəzərə alınmasına, bir-birinə qarşılıqlı hörmətə, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə əsaslanır. Unutmayaq ki, hazırda baş verən və dünyanı tamamilə fərqli edən məlum hadisələr fonunda Prezident İlham Əliyev Vladimir Putinlə Müttəfiqlik Əməkdaşlığı Bəyannaməsi imzalayıb. Və hətta bu çətin zamanda Rusiya və Azərbaycan münasibətlərinin müttəfiqlik xarakterini təsdiqlədilər. Qarşıda münasibətlərimizi gözəl gələcək gözləyir, lakin biz bunun üçün mübarizə aparmalıyıq.

Paşinyanla, onun komandası ilə işləməkdir, onu daim tənqid etmək deyil. Xüsusən də, Ermənistanda hakimiyyətin dəyişməsi üçün başqa imkanlar yoxdursa. Bəli, Ermənistanın baş naziri Rusiyaya nümayiş etdirmək istəyir ki, onun Qərb timsalında alternativi var. Ancaq onunla işləsək, bu yanaşmanı eyni şəkildə dəyişə bilərik. Bu günlərdə Ermənistanın baş naziri milli televiziyaya müsahibəsində açıq şəkildə bildirib ki, İrəvan KTMT-dən çıxmaq, Rusiya hərbi bazasını Ermənistan ərazisindən çıxarmaq fikrində deyil.

Paşinyana bacardıqca damğa vurduğumuz informasiya hücumları tamamilə əbəs, hətta zərərli bir məşqdir. Onun haqqında hətta ədəb-ərkan hüdudlarını da aşan şəxsi böhtan kampaniyasını dayandırmaq lazımdır. Ermənistanla münasibətlərdə biz ağlabatan praqmatizm nümayiş etdirməliyik.

Anqlosaksonlara qarşı bütün nifrətimlə Palmerstonun sitatını xatırlayıram: “İngiltərənin əbədi müttəfiqləri və daimi düşmənləri yoxdur– onun əbədi maraqları var”. Rusiya Ermənistana və istənilən başqa dövlətə münasibətdə eyni prinsipi rəhbər tutmalıdır. Onilliklər ərzində bizə Qarabağ separatçılarını necə dəstəkləmək lazım olduğu haqda nağıllar danışırdılar ki, guya Ermənistandakı “Qarabağ klanı” Rusiyaya qarşı ən məsuliyyətli, sağlam düşüncəli və mehriban qüvvədir. Son vaxtlar “qardaş xristian xalqı”nın vaxtaşırı hansı şüarlarla çıxış etdiyini gördük.

Biz Paşinyanın aparatı ilə, Ermənistanın Təhlükəsizlik Şurası ilə işləməliyik ki, problemli məsələlərdən hansısa konstruktivliyə necə keçə bilərik. Amma biz bunu artıq Ermənistana daxil olmuş, orada öz imkan və platformalarını yaradan, təsir agentlərini formalaşdıran Qərb dövlətləri ilə sərt rəqabət şəraitində etməliyik.

**- ABŞ-la birgə təlimlər oldu, Fransa hərbçiləri Ermənistana gəldi... KTMT təlimlərində iştirakdan imtina edildi... Ermənistanın Qərb tərəfindən maliyyələşdirilməsi...**

- Böyük planda bunlar heç nə demək deyil. Aydındır ki, Paşinyan siyasi səhvlərə, yolverilməz səhvlərə yol verir. Məsələn, Qranadada Zelenski və Tixanovskaya ilə görüş. O, bilməlidir ki, bu cür “görüşlər” Rusiya tərəfindən mənfi qarşılanmaya bilki səfirləri də lazım gəldikdə Kremlə hesabat vermək üçün Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi statusuna malik olmalıdırlar.

Baxın, ən azı 30 ildir ki, bizdə anti-Azərbaycan kampaniyası aparılır. Bu, Rusiya mətbuatında hələ də davam edir, baxmayaraq ki, vəziyyət son vaxtlar xeyli yaxşılaşıb. Ən böyük politologiya mərkəzlərində də anti-Azərbaycan kampaniyası gedirdi. Rusiya ilə Azərbaycan arasında Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannamə imzalandı, indi bu, bizim münasibətlərimizdə əsas sənəddir. Biz Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıyırıq. Prezident İlham Əliyev Rusiyaya qarşı ən proqnozlaşdırıla bilən, məsuliyyətli və mehriban postsovet liderlərindən biridir.

Buna baxmayaraq, 30 ildir ki, Azərbaycanın Rusiya ilə az qala, guya düşmən dövlət olduğunu bizə təbliğ edirdilər. Üstəlik, bir sıra Rusiya media orqanları da bunu edirdi. Bu nədir? Nə yaxşı ki, Bakıda yaxşı münasibətlər saxlamaq üçün kifayət qədər müdriklik, səbr var, üstəlik, bu əlaqələr inkişaf edir. Bu, bir siyasətçi kimi İlham Əliyev üçün şərəfdir. Ancaq yenə də yanaşmamızı dəyişdirməliyik...

İndi Rusiya ilə Azərbaycanın arasını kəsməyə çalışan həmin “personajlar” bizi Qazaxıstanla dalaşdırmağa çalışırlar... Rusiya üçün Qazaxıstan postsovet məkanında əsas ölkələrdəndir. Onunla bizim ən böyük ortaq sərhədimiz var. Rusiya qazının Qazaxıstanın qaz nəqli sistemi vasitəsilə Özbəkistana tədarükü haqqında saziş təzəcə imzalanıb. Avropaya ixracı dayandırdığımız şəraitdə bizim yeni satış bazarlarımız var. Bakıda Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi qəbul edən İlham Əliyev Müttəfiqlərin Əməkdaşlığı haqqında Bəyannamənin imzalanmasından sonra iki ölkə arasında münasibətlərin həqiqətən də onların müttəfiqliyini təsdiq etdiyini vurğulayıb.

Həmçinin Rusiya və Azərbaycan Təhlükəsizlik Şuralarının katibləri informasiya təhlükəsizliyi üzrə əməkdaşlıq planı imzalayıblar. Patruşev qeyd edib ki, Rusiya Azərbaycanı beynəlxalq informasiya təhlükəsizliyi sahəsində həmfikir tərəfdaş hesab edir. Deyə bilərəm: Nikolay Patruşevin dedikləri Kremlin rəsmi mövqe-

Sabah (bu gün-red) MDB Dövlət Başçıları Şurasının Bişkekdə keçirilən iclası çərçivəsində Vladimir Putinlə İlham Əliyev arasında görüş keçiriləcək. Rusiya liderinin köməkçisi Yuri Uşakov artıq Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olduğunu və Moskvanın bu təmaslara böyük əhəmiyyət verdiyini vurğulayıb. Onun sözlərinə görə, prezidentlər iqtisadi sahədə gələcək inkişaf perspektivləri, enerji və sənaye sahələrində birgə təşəbbüslərin həyata keçirilməsi, Qarabağ ətrafında gedən proseslərlə bağlı fikir mübadiləsi aparacaqlar.

**- Rusiya Federal Təhlükəsizlik Xidmətinin rəhbəri Bortnikov bu gün Bakıda keçirilən görüşdə qeyd edib ki, ABŞ və Britaniya bu gün MDB-nin cənub sərhədlərində qeyri-sabitlik qurşağının yaradılmasında iştirak edir...**

- Rusiya FTX-nin direktoru Aleksandr Bortnikov gedən proseslərə münasibətimizi açıqladı. Göründüyü kimi, onun məruzəsindən sonra Birlik məkanında antiterror əməkdaşlığın gücləndirilməsi, postsovet məkanını sarsıtmaq üçün dağıdıcı cəhdlərə qarşı əks-kəşfiyyat fəaliyyətinin gücləndirilməsi nəzərdə tutulur. Buna görə də, Ermənistanla işləmək də vacibdir ki, Qərb kəşfiyyat xidmətlərinin kəşfiyyat və təxribat fəaliyyətini gücləndirərək, NATO ölkələrinin xarici hərbi bazalarını daimi olaraq regionumuza gətirməsin. Bortnikovun danışdığı risklər isə çox ciddi təhlillərə və onların hər birini zərərsizləşdirmək üçün əməli fəaliyyətə layiqdir.

Yeri gəlmişkən, biz Bakının yenidən əsas təhlükəsizlik məsələlərinin müzakirə meydanına çevrildiyini gördük. Biz xatırlayırıq ki, münaqişə qızışmazdan əvvəl Rusiya və Qərb tərəfləri öz nümayəndələri ilə görüşmək üçün dəfələrlə Bakını seçiblər. Azərbaycan mötəbər beynəlxalq platformadır, bu gün Azərbaycan Respublikası dünyanın ən yaxşı ordularından birinə malik dünyanın ən qabaqcıl inkişaf etmiş ölkələrindən biridir. İndi biz İsrailin necə müharibə apardığını görürük. Və Azərbaycan ordusunun qarşısına qoyulan vəzifələri 44 gündə necə həll etdiyini xatırlayıram. Həmçinin bu yaxınlarda keçirilmiş 1 günlük əməliyyatı. Azərbaycanın təcrübəsini öyrənmək lazımdır. Ondan öyrəniləcək çox şey var.

***Tərcümə - Elçin Bayramlı***

# “10 oğlum olsa, onunu da vətənə qurban verərdim”

*Şəhid kapitan Vüqar Eyvazovun anası Telli Eyvazovanın SİA-ya müsahibəsini təqdim edirik:*



ŞƏHİD ANASI İLƏ MÜSAHİBƏ

**- Oğlunuz haqqında bizə ilkin məlumat verə bilərsiniz?**

- Vüqar 24 yanvar 1989-cu ildə Naxçıvanın Kəngərli rayonunun Şaxtaxtı kəndində anadan olub. 1-ci sinifi Naxçıvanda Akademik Zərifə xanım Əliyeva adına Şaxtaxtı tam orta məktəbdə oxuyub. 1996-cı ildə Bakıya köçdük və burada Binəqədi rayonu 205 saylı orta məktəbdə təhsilini davam etdirdi. Orta məktəbdən 2006-cı ildə məzun olub. Daha sonra Gəncədə Azərbaycan Aqrar Universitetinə qəbul oldu. Hərbi xidmətini Naxçıvanda çəkib.

Bir gün mənə zəng etdi ki, ana istəyirəm elə hərbdə qalıb oxuyam. Amma sizin razılığınız mənim üçün çox vacibdir. Bu, bir ana olaraq mənim də arzum idi və razı oldum. Çünki Vüqarın boyu uca idi və ona hərbdə çalışmaq çox yaraşardı. Dedi ki, ana, sənin arzunu yerinə yetirəcəyəm. Dediyini də etdi. Ona rütbə verdilər. Sonra Daşkəsənə yollanıb orada xidmət etdi. 2020-ci ildə də ermənilər öz mənfur əməllərini yenidən işə saldılar. Vüqar 44 günlük Vətən müharibəsində də iştirak edib. Dedim, Vüqar, qorxuram, onlar əməllərindən əl çəkməyəcəklər. Dedi, ana, o elə bir köynəkdir ki, mən onu ömürlük geymişəm. Bunun üç yolu var. Ya başa vurmalıyam, ya şəhid, ya da qazi olmalıyam. Mən qorumayım, o qorumasın, bu qorumasın, bəs torpağımızı kim qorusun?!”. Oğlum, Xocavənd rayonunda şəhid olub. İkinci Fəxri xiyabanda isə dəfn olunub.

**- Son telefon danışıqlarınızı xatırlayırsınız? Sizə nə söyləmişdi?**

- Sentyabrın 17-18-i danışdıq. Sentyabrın 19-u saat 10-a 20 dəqiqə qalmış bir də danışdıq. Dedim oğlum, necəsən? Ana, narahat olma, hər şey yaxşıdır. Allaha əmanət ol, - deyə cavab verdi. Dedim oğlum, mən evdəyəm, mənə nə olacaq?! Əsas sən yaxşı ol. Vüqar demişdi ki, ola bilər 2-3 gün telefona zəng çatmasın, narahat olmayın. Bir də dedi ki, ana, sənə bir söz deyəcəyəm, amma çığırma. Mən bu yolu bilərək seçmişəm. Əgər bir gün şəhid olsam üzülmə. Çünki bu pillə hər adama qismət olmur. 21-i də, ümumiyyətlə, zəng çatmadı.

**- Vüqardan başqa övladınız var?**

- İki oğlum var idi, Vüqar getdi, qaldı Vüsal. Vüsala Vüqara zəng çatmadığını bildirdim. Dedi ana, danışmışam narahat olma. Yox, ürəyim çox narahatdır - deyə cavab verdim. Atasının 40 mərasimi günü qəbir üstünə yollandım. Yoldaşımla dərdləşib dedim ki, ürəyini sıxma, Vüqar gələndə də sənin yanına gələcəyəm. Heç nə bilmirdim. Amma hiss edirdim.

Övladlarım heç vaxt məni utandırmadı. İkisi də ali savadlıdır. Qardaşı ilə aralarında 1 yaş fərq var idi. O qədər alışmışdı ki, qardaşı ilə də əsgər kimi rəftar edirdi. Vüsal deyirdi ki, ay Vüqar, mən sənin əsgərin deyiləm, qardaşınam.

**- Onsuz keçən günlər sizin üçün nə ifadə edir?**

- Düzdür, itki çox ağırdır, amma fəxr edirəm. Oğlum torpaq, vətən və bayraq uğrunda şəhid olub. 34 yaşı var idi... Az, amma qürurlu və mərd yaşadı. 10 oğlum olsa, onunu da vətənə qurban verərdim. Təki, vətən sağ olsun. Vüqar tək mənim yox, bütün Azərbaycanın oğludur. Dözə bilmirəm, gözüm yolda qalıb, elə bilirəm qapı döyüləcək və Vüqar içəri girəcək. Telefonu yanımdan ayırmıram ki, zəng edib deyəcək, - ana, necəsən?.

**- Evli idi?**

- Bəli.

**- Neçə övladı var?**

- Bir oğlu və bir qızı var. Biri 3, biri də 1-ci sinifdə oxuyur.

**- Övladları atalarının şəhid olmasını bilir?**

- Bilirlər. Onlar bizimlə yaşamır, əlaqəmiz yoxdur. Gəncədədirlər. Vüqar rəhmətə gedən günü gəldilər. Sonrakı gün də öz evlərinə qayıtdılar.

**- Oğlunuzun ən çox hansı xasiyyətini sevirdiniz?**

- Vüqar az danışan və sakit idi. Atası rəhmətə gedəndə gəldi mənə dedi ki, ana, narahat olma, hər şey yoluna düşəcək. Səbirli ol, gəlib səni gəzməyə aparacağam. Sanki şəhid olacağını hiss edirdi.

Arada deyirdim ki, Vüqar, işləmə, gəl otur evimizdə. Dedi ki, mənim dədəm, anam, ailəm, hər şeyim bu formadadır. Özünün bir dəst sərbəst geyimi var idi. Qalan hamısı hərbi forma idi. Az qalırdı yatanda da forma ilə yatsın. Yalanı heç xoşlamırdı. Deyirdi ki, onsuz da yalanın üstü açılacaq. Amma həmin adamın özündən doğrunu eşitmək istəyirəm.

**- Övlad olaraq Vüqardan razı idiniz?**

- Çox razıydım. Allah hamıya Vüqar kimi mərd, ailəcanlı və ata-anaya bağlı övlad qismət etsin. Atasının ayağı amputasiya olmuşdu. Vüqar da onun nazı ilə oynayırdı. Bir-biri ilə nəfəs alırdılar.

**- Hansı məşğuliyyətləri var idi?**

- Döyüş filmləri izləməyi çox sevirdi.

**- Ən böyük arzusu nə idi?**

- Deyirdi ana, ən böyük arzumdan biri öz evimizin olmağıdır. Sonra da özümə bir maşın alacağam. Biz kirayə yaşayırıq, öz evimiz yoxdur. Çox şey istəmirəm ki, sadəcə, başımızı salacaq bir evimiz olsun, - deyirdi.

Vüqar, kapitan anasıyam, istəyirəm bir gün mayor anası olum deyəndə, ana, tələsmə o arzuna da çatacaqsan, deyirdi. Mayor anası yox, şəhid anası oldum. Həmişə yol gedəndə şəhid şəkillərinə baxıb kövrəlirdim. Nə biləydim ki, öz oğlum da şəhid olacaq.

**- Vüqar sizə, yoxsa atasına daha çox bağlı idi?**

- Hər ikimizi çox sevirdi. Görün atası ilə nə qədər bir-birinə bağlı idi ki, atasının 40 mərasimi günü şəhid oldu. Sentyabrın 21-i atasının 40 mərasimi idi. Axşam saat 7-də xəbər gəldi ki, Vüqar yaralanıb. Hərə bir söz deyirdi. Vüsal dedi ki, ana qorxma, çiynindən yaralanıb. Hiss edirdim ki, Vüqara nəsə olub. Çünki ürəyim göynəyirdi.

**- Vüqar şəhid olduqdan sonra yuxularınıza gəlib?**

- Cəmi bir dəfə kinolent kimi şəkli yuxuma gəlib. Səslərinə qulaq asır, videolarına baxıram. Deyirəm noldu ki, bir dəfə qapını aça içəri girərdi. Yaşamaram ondan sonra. Onsuz da mən yaşayan ölüyəm. Vüqarla fəxr edirəm. Onu bütün Azərbaycan tanıyır.

**- Oğlunuzun azad etdiyi torpaqları görmək istəyərsiniz?**

- Əlbəttə istəyərəm. İstəyirəm məni Vüqarın şəhid olduğu yerə aparalar. Oranın torpağından bir ovuc da olsa, yığıb gətirmək istəyirəm. Oğlumun qanı tökülən yerə erməni ayağı dəyməsin istəyirəm. Ürəyim az da olsa sərinləyir ki, oğumun qanı yerdə qalmadı. Övlad acısı bir ana üçün ən ağır dərddir. Bircə onu düşünürəm ki, bəlkə də Vüqar yaralananda məni çağırıb. Buna görə özümü bağışlaya bilmirəm.

**- Onsuz keçən günlər sizin üçün nə ifadə edir?**

- Boşluq. Hərbçi olduğu üçün 2-3 aydan bir gələrdi. O, evimin ən əziz qonağı idi. Ona doymadım. Analar heç vaxt övladına doya bilməz. Həmişə boynumu qucaqlayardı, boynum boş qaldı. Onun yerini heç nə doldurmur. Hər övladın öz yeri var. Vüqar bambaşqa idi.

**- Atası ilə bənzəyirdi?**

- Atası deyən-gülən adam idi. Vüqar isə zarafat sevmirdi.

**Vüqarın yoldaşı haqqında nə deyə bilərsiniz?**

- Tələbə vaxtı Gəncədə tanış olublar. Özləri bir-birini sevib evlənib. Vüqar Vətən müharibəsindən gəldikdən sonra yoldaşı ondan boşandı. Onlarla heç bir əlaqəmiz yoxdur.

**- Bəs, Vüqar şəhid olduqda yoldaşı gəlmədi?**

- Axşam uşaqlarla gəldi. Dəfn günü oğlunu evə yolladı, sonra da qızını. Vüqarın üç mərasimində də mərasim evindən gəlib getdi.

**- Vüqarın xatirəsinin hansı formada əbədiləşdirilməsini istəyərdiniz?**

- İstəyərdim qəhrəman adı verilsin. Onsuz da Vüqar qəhrəmandır. Məndən soruşurlar ki, nə istəyirsən? Deyirəm heç nə lazım deyil. Mən ancaq Vüqarı istəyirəm. Dünya malında gözüm yoxdur.

***Ayşən Vəli***

# “Fransanın bütün iddiaları əsassızdır”



“Fransa dövlətinin ali siyasi rəhbərliyi Azərbaycan əleyhinə fəaliyyətini genişləndirməkdə, intensivləşdirməkdə və radikalkaşdırmaqdadır. Eyni zamanda nə qədər paradoksal səslənsə də Fransa Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesində iştirak etmək istəyir. Bu prosesə qatılmaq istəyir. Axı, qərəzli mövqedə olan, gecə-gündüz anti Azərbaycan fəaliyyətlə məşğul olan, Azərbaycana qarşı sanksiyaların tətbiqinə nail olmaq istəyən bir dövlət hansı vasitəçilik roluna malik ola bilər?! Azərbaycan bu vasitəçiliyi rədd edir və təsadüfi deyildir ki İspaniyanın Qranada şəhərində keçirilən məlum tədbirlərdə məhz Fransanın anti-Azərbaycan mövqeyinə görə Azərbaycan Prezidenti cənab İlham Əliyev qatılmadı, çünki o tədbirdən Fransa prezidenti Emmanuel Makron da iştirak edəcəkdi”. Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib.

Onun sözlərinə görə, Makron məcazi mənada desək, sanki danışıqlar prosesinə qapıdan deyil, pəncərədən daxil olmaq istəyir: “Çünki qapıdan onun bu prosesə daxil olması qeyri-mümkündür. Məsuliyyət də məhz Fransanın öz üzərinə düşür. Çünki bu ölkənin bütün qurumları Azərbaycan əleyhinə fəaliyyətlə və dezinformasiya yaymaqla məşğuldur, BMT təhlükəsizlik şurasının anti Azərbaycan qətnamə lahiyələrinin müəllifliyi ilə məşhurdur”.

Deputat sözlərinə belə davam edib: “İndi də Fransanın təşəbbüsü ilə bir qrup dövlət cari ilin oktyabr ayının 11-də BMT-nin İnsan Hüquqları Şurasının Azərbaycan əleyhinə birgə bəyanat qəbul ediblər. Bundan bir qədər öncə oktyabr ayının 5-də Avropa parlamentinin anti-Azərbaycan qətnamə qəbul etməsinin də əsas müəllifi məhz Fransa, fransalı deputatlar olmuşdur. Ona görə də hesab etmək olar ki, Fransanın bütün bu cəhdlərinin heç bir gücü və potensialı olmayacaq. Fransanın bu haqqında bəhs edilən bəyanatda da Azərbaycan əleyhinə səsləndirdiyi mövqe əsassızdır. Bütün iddialar əsassızdır, böhtan xarakterlidir və hesab edirəm ki, ermənilərin Qarabağdan köçməsinin təzyiq və Azərbaycan təhdidləri altında baş verməsi ilə bağlı Ermənistan iddiaları yalan və iftiradan başqa bir şey deyil. Təkzib edilən münasibətlər, arqumentlər, audio və video görüntülər Fransanın nə qədər dezinformasiya yaydığını təsdiq edir. Belə bir dövlətin sülh prosesinə töhfə vermək niyyəti absurddur. Azərbaycan bütün platformalarda Fransanın bu niyyəti əleyhinə sədd yaradacaq. İndiki halda da Fransanın ümumiyyətlə sülh prosesində iştirakının heç bir perspektivi ola bilməz”.

***Ayşən Vəli***

# Heydər Əliyev ideyaları əsasında inkişaf edən Azərbaycan yeni zirvələr fəth edir



## *Sabunçu rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Sabunçu rayon təşkilatı oktyabr ayının 12-də Bakı Gənclər Mərkəzində tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.









Konfransı giriş sözü ilə açan YAP Sabunçu rayon təşkilatının sədri Araz Xudadanov bildirib ki, Azərbaycan tarixinin bütöv bir dövrü Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Ümummilli Liderin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib: "Bu gün Heydər Əliyev ideyaları əsasında inkişaf edən, qüdrəti və beynəlxalq nüfuzu getdikcə artan Azərbaycan yeni zirvələr fəth edir."

Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev vurğulayıb ki, dahi şəxsiyyət Ümummilli Lider Heydər Əliyev bütün dövrlərdə xalqımıza və dövlətçiliyimizə ləyaqətlə, sədaqətlə xidmət edib. Heydər Əliyev həmişə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparıb. Ümummilli Liderin dövlətimiz və xalqımız üçün göstərdiyi müstəsna xidmətlər Azərbaycanın dünyada söz sahibi olan ölkəyə çevrilməsində mühüm rol oynayıb.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə söyləyib ki, 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmizi məhv olmaq təhlükəsindən qurtardı: "Ümummilli Lider Heydər Əliyevin müasir və müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir dövlətə çevrilib. Bu heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna yönəltmək üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan dövlətçiliyini bütün təhlükələrdən qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər müasir tariximizin şərəfli dövrünü əhatə edir. Ölkəmizdə dövlətçilik ənənələrinin zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi və dinamik iqtisadi inkişaf yolu ilə inamla irəlilənməsi, Azərbaycanın beynəlxalq imicinin sürətlə artması məhz Ümummilli Lider Heydər Əliyevin yorulmaz və səmərəli fəaliyyəti sayəsində mümkün olub.

Vətən Müharibəsi Qəhrəmanı Anar Mirzəyev qeyd edib ki, Vətənine, xalqına sədaqətlə xidmət etmiş Ulu Öndər Heydər Əliyev Azərbaycanın keçmişini yaşadan və gələcəyini müəyyən edən müdrik dövlət xadimidir. Azərbaycan gənclərinin əsl vətəndaş kimi formalaşmasında Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var.

Dövlət Gömrük Komitəsi Akademiyasının rəisi Qulu Novruzov bildirib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın tərəqqisi uğrunda çalışmış, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir. Bu gün Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dünyada güclü və nüfuzlu dövlətə çevrilib. Prezident İlham Əliyev ölkəmizə möhtəşəm nailiyyətlər qazandırıb.

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından geniş bəhs edib. O bildirib ki, bu gün hər bir Azərbaycan gənci müstəqillik yolumuzun heç də hamar olmaması barədə aydın təsəvvürə malik olmalıdır. Bugünkü inkişaf üçün kimə borclu olduğumuzu bilməli, onlara əmanət olan Heydər Əliyev irsini qorumalı və geniş təbliğ etməlidirlər. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına isə üzvlük vəsiqələri təqdim edilib.



**Mətanət Məmmədova**

# Psixologiyanı pozan psixoloqlar

***İndiyədək psixoloji xidmətlərdən heç vaxt istifadə etməmişəm. Yaqin psixoloji vəziyyətimlə buna ehtiyac duymamışam. Bu səbəbdən də psixoloji xidmətlər haqqında görünür, məlumatsızmışam. Lakin bu gün mətbuatda oxuduğum bir xəbərlə anladım ki, bizdə psixoloqlar var ki, qəbulu 500 manat, hətta bundan da baha imiş...***

Nə səbəbə? Psixoloqlardan biri-Nizami Orucov,- istənilən sahənin professionalları, artıq ad-san qazanmış mütəxəssisləri qiymət formalaşdırarkən müəyyən amilləri özləri üçün əsas götürürlər,- deyir. Və öz üzərində misal çəkib davam edir: xaricdə təhsil, kitablara verilən pullar, ixtisasartırma kursları, toplanmış bilik və təcrübələr - hamısı mənim qəbulumu olduqca dəyərli edir, eyni zamanda insanlara bahalı gəlir. Çünki bu, olduqca böyük resurslar tələb edən ixtisasdır. Mənim sağlamlığımı, özümə dəyər verməyimi, problemləri həll etməyimi də bura əlavə etsək... Nə qədər çox problem həll etmişəmsə, deməli, bir o qədər uğurlu mütəxəssisəm.

Psixoloqun bu fikirləri ilə tanış olar-olmaz uzun illər sonra psixologiyamın qarışdığını hiss etdim. Mənə bir anlıq elə gəldi ki, həyatdan mənəvi tərəfim üzülür. Lakin özümü birtəhər toplayıb, ataların "Ağac bar gətirəndə başını aşağı salar" aforizmini yadıma saldım. Sonra da öz-özümə dedim ki, yox, ay rəhmətliklər, deyəsən, XXI əsr hər şey kimi, bu ağac məsələsinə də bir əl gəzdirib: ağac bar gətirəndə ta başını aşağı salmır...

Sonra da dedim ki, bu ağacı-filanı qoy bir kənara. Deməli, xaricdə təhsil almamısansa, mütəxəssis deyilsən? Kitablara axı biz də xeyli pul xərcləmişik, əziz psixoloq... İxtisasartırma kurslarında da dəfələrlə olmuşuq. Təcrübəmiz də yetərli qədərdir. Vallah, başqa ixtisasları deyə bilmərəm, elə jurnalistika da, əziz psixoloq, sizin dediyiniz kimi, böyük resurslar tələb edir.

Nizami bəy, sağlamlığa gəlincə, sabah necə olacağını heç kim deyə bilməz. Problemləri həll etməyə gəlincə, bizlər də minlərlə problem həll etmişik. Özümüzə dəyər verməyə gəlincə, isə düşünürəm ki, bu, elə bizlik iş olub. Özünə dəyər verməyin xidmət haqqına təsir etdiyini indi eşidirəm. Sizin bir qəbulda tələb etdiyiniz 500 manat bizim bir aylıq əmək haqqımızdır. Həm də yüzlərlə uğurlu yazıların müəllifi olan bizlərin. Özümüzə verdiyimiz dəyər bir yana, dövlət, xalq-oxucu bizə hər zaman dəyər verir. Kimsəsiz uşaqdan da yazmışıq, həbsdə olan qadın-kişidən də, fəhlədən də, müəllimdən, həkimdən də. Lakin xidmət haqsız, ancaq maaşa...

Qaldı sizin, "Əlbəttə ki, bütün bunlar qiymətləri formalaşdırır. O insanlar ki mənim, yaxud başqa psixoloqların qəbuluna ödəniş edə bilmirlər, onlar üçün dövlətin ödənişsiz psixoloji xidmətləri var. Fövqəladə Hallar Nazirliyinin, Səhiyyə Nazirinin də psixoloji xidmətləri mövcuddur. Onlara müraciət edə bilərlər" sözlərinizə, həqiqətən də nə yaxşı ki, bu dövlət var, yoxsa "özəllərin" öz əllərindəcə boğulardıq.

Onu da demək istəyirəm ki, istənilən resursa malik olmaq fərqlilik deyil. Fərqlilik məhz 500 manatı olanı deyil, olmayanı qəbil edib sağaltmaqdır. Təbii ki, həmişə deyil, hərdənbir.

Düşünürəm ki, inşallah, 500 manata gücü çatmayanlardan Allah şəfasını əsirgəməz. Ki, onlar da sizlərə möhtac olmaz.

Bir də səhərdən bəri onu fikirləşirəm ki, bu xəbəri oxuyandan sonra mən bu qədər psixoloji sarsıntı keçirdimsə, gör, qəbulunuzun qiymətindən xəbərsiz olaraq sizə müraciət edən, lakin qapıdan qaytardığınız psixoloji vəziyyəti normal olmayanlar nə vəziyyətə düşürlər...

Son olaraq, həmkarlarımdan xahiş edirəm ki, belə xəbərləri saytlara çıxarmasınlar. Ona görə ki, bu tip yazılar normal psixologiyanı belə pozur...



# Füzuli yeni düzənin ahəngində



***30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları olan Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. 44 günlük Vətən müharibəsində qazandığımız qələbə nəticəsində Zəfər tariximiz yazıldı.***





Bu qələbə Cənab Prezident İlham Əliyevin qətiyyəti, xalqımızın inamı və şəhidlərimizin qanı bahasına əldə olundu. Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz Ermənistana böyük zərbə vurdu və əzəli torpaqlarımız işğaldan azad olundu. Qazandığımız Zəfər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin, xalq-iqtidar birliyinin təntənəsidir. XXI əsrin müharibəsini aparan Azərbaycan tarixinə Zəfər gününü yazdı. Bu gün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalanır. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar ermənilərі torpaqlarımızdan təmizlədi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

### "FÜZULİ BİZİMDİR, QARABAĞ AZƏRBAYCANDIR!"

Füzuli şəhəri də işğaldan azad olundu. Azərbaycan Prezidenti İlham Əliyev 17 oktyabr 2020 - ci il tarixində xalqa müraciətində "Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib – Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!" – deyə bildirmişdir.

Cənab Prezident onu da bildirmişdir ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi: "Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi. Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-ələmət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir".

Füzuli əməliyyatı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərdən biri kimi tarixə düşdü. Bu qələbənin qazanılmasında Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. 1993-cü il 23 avqust tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Füzulinin 27 illik həsrətinə son qoyuldu.

Davam edən əməliyyatlar nəticəsində isə 20 oktyabrda Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Saracıq, 21 oktyabrda Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri, 28 oktyabrda Mandılı, 7 noyabrda Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar və Divanalılar və digər tarixlərdə bir neçə kəndi də Azərbaycan Silahlı qüvvələri tərəfindən Ermənistanın işğalından azad olundu. Bu tarixlər Füzulinin tarixində hər zaman yaşanacaq günlər kimi əbədiləşdi.

Qeyd edək ki, 1988-ci ildən başlayan Ermənistan təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzulinin 1.100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36.361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. 55 min nəfərə yaxın füzulili öz doğma torpaqlarından qovulmuşdur.

Füzuli rayonuna gedən yolun ətrafında bir vaxtlar həyat qaynayıb, bu kəndlərdə insanlar firavan və sülh içində yaşayıblar. Ancaq ermənilər tərəfindən torpaqlarımızın işğala məruz qalmasından sonra azərbaycanlılar öz dədəbaba torpaqlarından qovulublar, erməni vandalları tərəfindən evlər yerlə-yeksan edilib. Onlar daşı daş üstündə qoymayıblar, azərbaycanlıların tikdiyi evləri vəhşicəsinə dağıdıblar. Bunlar ermənilərin əməllərinin nəticəsidir.

### ABADLIQ-QURUCULUQ MEYDANINA ÇEVRİLƏN FÜZULİ

Prezident Füzuliyə səfərləri tarixi hadisələrlə yadda qalır. Füzuli Beynəlxalq Hava Limanında istifadəyə verilməsi, Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməlqoyma mərasimi, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi və s. Füzulinin tezliklə abadlaşmasına yönəlmiş layihələrdir. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Bu gün işğaldan azad olunan ərazilərimizdə, eləcə də Füzulidə abadlıq-quruculuq işləri böyük vüsət alıb. Füzuli qaynar dövrünü yaşayır. Böyük Qayıdış çərçivəsində əzəli sakinlər doğma yurduna qayıdır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü olaraq, təhlükəsiz şəkildə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Abadlaşan və daha da gözəlləşən Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşırlar. Füzuli abadlaşır və yenidən qurulur. Füzuli Beynəlxalq Hava Limanının 2021-ci il yanvarın 14-də təməlinin qoyulması və 2021-ci il oktyabrın 26-da açılışı buradakı görülən işlərin əyani təzahürüdür. Cəmi 9 ay ərzində müasir standartlara cavab verən beynəlxalq hava limanının inşa edilib istifadəyə verilməsi və bu layihənin tam dağıdılmış, heç bir adi infrastrukturu belə olmayan bir ərazidə həyata keçirilməsi Azərbaycan dövlətinin iqtisadi qüdrətinini göstəricisidir. Füzuli Beynəlxalq Hava Limanı, xüsusən bu rayonun Qarabağın və Şərqi Zəngəzurun hava qapısı rolu oynadığını birmənalı surətdə təsbit edir. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasəti, siyasi iradəsi ilə Füzuli-Şuşa yolunun təməlinin qoyulması və qısa müddətdə müasir tələblər əsasında və keyfiyyətli surətdə istifadəyə verilməsi, o cümlədən Füzuli-Ağdam, Füzuli-Hadrut və digər avtomobil yollarının inşası xüsusi ilə qeyd olunmalıdır.

### FÜZULİ ŞƏHƏRİNƏ DAHA 21 AİLƏ - 88 NƏFƏR KÖÇÜRÜLDÜ

Füzuliyə köç karvanları davamlı olaraq yol alır. Oktyabrın 12-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 21 ailə - 88 nəfər köçürülüb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü olaraq, təhlükəsiz şəkildə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşırlar. Bir neçə gün əvvəl, oktyabrın 10-da növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salındı. Bu mərhələdə Füzuli şəhərinə daha 21 ailə - 88 nəfər köçürüldü. Bununla da Füzuli şəhərində 208 ailənin, yəni, 749 nəfərin daimi məskunlaşması təmin ediləcək. Füzuli yenidən qurulur, ona yeni həyat verilir.

***Zümrüd BAYRAMOVA***

# Tarixi-siyasi əhəmiyyətə malik sənəd: Qars müqaviləsi



1921-ci il oktyabrın 13-də Qars müqaviləsi imzalandı. Həmin tarixdən 102 il ötür. Qars müqaviləsində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Naxçıvanla bağlı məsələ öz ədalətli həllini tapıb və ərazi-sərhəd problemi həll olunub. Mühüm tarixi-siyasi əhəmiyyətə malik olan Qars müqaviləsi Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, o cümlədən görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, Türkiyə dövlətinin məsələyə ədalətli yanaşması nəticəsində Naxçıvanın ərazisi və bu ərazinin beynəlxalq müqavilə ilə qorunan toxunulmazlığı hüquqnu təsbit etmişdir. Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tariximizdə mühüm mərhələdir. Bu müqaviləyə qədər olan tarixi dövrə nəzər salsaq görərik ki, XX əsrin 1918-20-ci illərində Azərbaycanda və onun Naxçıvan bölgəsində vəziyyət çox mürəkkəb xarekter almışdır.

Mövcud vəziyyətdə Azərbaycandan lazımi köməyi ala bilməyən Naxçıvanın təkləndiyini görən azğın erməni daşnakları hərbi və siyasi yolla qədim diyarı işğal etmək istəyirdilər. Böyük dövlətlərə arxalanan ermənilər Naxçıvana hücumlar edir, şəhər və kəndləri dağıdırdılar. Ağlasığmaz vəhşiliklər və qırğınlar törədən erməni daşnakları Naxçıvan bölgəsində azərbaycanlıların inadlı müqavimətinə rast gəlmişdilər. Tarixdən bizə aydındır ki, 1918-1920-ci illərdə ermənilər Naxçıvanda soyqırımlar törədib, lakin əhalini tabe edə bilməmişdilər. 1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında bağlanmış müqavilədə isə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur Ermənistana güzəşt edilmişdi.

Tarixi dövrə istinadən qeyd edək ki, 1920-ci il noyabrın 29-da Ermənistanda bolşevik hakimiyyəti yaradılıb. Bu münasibətlə Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış edib. Rusiyanın diktəsi ilə yazılmış bəyanat iki sovet respublikası arasında ərazi mübahisələrinin Azərbaycanın milli mənafeyinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Buna görə də həmin bəyanat Naxçıvan və Zəngəzurun müsəlman əhalisinin haqlı narazılığına səbəb olmuş, eləcə də bu bəyanat Türkiyə nümayəndələri tərəfindən də etirazla qarşılanmışdır.

### "QARS MÜQAVİLƏSİ BİZİM ÜÇÜN ÇOX BÖYÜK, ƏVƏZİ OLMAYAN SƏNƏDDİR"

Türkiyə və üç Cənubi Qafqaz respublikası arasında 13 oktyabr 1921-ci ildə Qarsda imzalanan müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Bu müqavilədə Azərbaycanın ərazi bütövlüyü təmin olunmuş, qeyri-bərabər hüquqlu müqavilələr, zorla qəbul etdirilən müqavilələr rədd edilirdi. Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit edilmişdi. Naxçıvanın statusu və təbeçiliyi məsələsi beynəlxalq müqavilələrlə tam şəkildə həll edilib.

Bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilib və həmin il sentyabrın 11-dən qüvvəyə minib. Qars müqaviləsi imzalandıqdan sonra Naxçıvan bölgəsi Sovet Sosialist Respublikası elan olunmasına baxmayaraq, Ermənistan Qars müqaviləsinin bu maddəsindən müəyyən bəhanələrlə imtina etməyə cəhd göstərir, Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış edirdi. Zaqafqaziya MİK-in qərarları ilə 1929-1931-ci illərdə Naxçıvan




MSSR-in ərazisinin bir qismi qanunsuz olaraq Ermənistana verilib. Naxçıvan Muxtar Respublikasının beynəlxalq Qars müqaviləsi ilə təsbit edilmiş ərazisinin, təqribən, 15 faizi keçən əsrin müxtəlif dönəmlərində Ermənistan tərəfindən qanunsuz olaraq zəbt edilib.

Qars müqaviləsində muxtariyyətin əsası qoyulub, Naxçıvan ərazisində Naxçıvan SSR yaradılıb, lakin 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrilib. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb. Ümummilli Lider Heydər Əliyev Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini yüksək qiymətləndirərək belə deyirdi: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir".

1991-ci il yanvarın 11-də Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verərək həmin ölkələri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktlarına münasibət bildirməyə çağırıb. Bu, Naxçıvanın muxtariyyət statusunun beynəlxalq müqavilələrlə qorunması faktının aktuallaşdırılması ilə yanaşı, muxtar respublikanın məruz qaldığı hərbi müdaxilə təhlükəsindən diplomatik yolla qorunmasına şərait yaradıb. Naxçıvanın tarixində mühüm və əhəmiyyətli məsələ olan Qars müqaviləsi XX əsrdə Naxçıvan ərazi bütövlüyünün təmin olunmasında mühüm rol oynamışdır.

### "ŞUŞA ŞƏHƏRİNDƏ MÜTTƏFİQLİK HAQQINDA İMZALANMIŞ BİRGƏ BƏYANNAMƏ BİZİM GƏLƏCƏK İŞ BİRLİYİMİZİN İSTİQAMƏTİNİ GÖSTƏRİR"

100 il sonra - 1921-ci il 13 oktyabrda imzalanmış Qars müqaviləsindən sonra Türkiyənin Azərbaycana dəstəyini ən güclü formada nümayiş etdirən rəsmi sənəd Şuşa Bəyannaməsi imzalandı. 30 ilə yaxın erməni işğalçılarının tapdağı altında əzilən Şuşa üç il əvvəl noyabrın 8-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və Milli Ordumuzun rəşadəti ilə böyük zəfərə, şanlı qələbəyə imza atdı. 2021-ci ilin iyunun 15-də isə Şuşa Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalandığı tarixi məkana çevrildi. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Tarixi Qars müqaviləsi yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir". İki dost və qardaş ölkə arasında imzalanmış bu sənəd Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğa tərəfindən dünyaya bir mesaj oldu. Bu günə qədər iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək, 9 fevral 1994-cü il tarixdə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq imzalanmış Birgə Bəyannamə Azərbaycan və Türkiyə arasındakı münasibətlərə böyük töhfədir. Şuşa Bəyannaməsi regiondakı yeni reallıqlara, inkişafa, sülhün tam təminatına böyük təkandır. Qars müqaviləsinə istinad edilən Bəyannamə öz formatına görə ondan daha əhatəli sənəddir. Bu sənəddə Zəngəzur dəhlizinin açılması ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi, iqtisadiyyat, təhsil, müasir texnologiyalar üzrə əməkdaşlığın daha da dərinləşdirilməsi, Silahlı Qüvvələrimizin yeni çağırışlara uyğun olaraq yenidən formalaşdırılması, modernləşdirilməsi, iki ölkənin silahlı qüvvələrinin fəaliyyət qabiliyyətinin birlikdə artırılması və digər tədbirlər əksini tapıb.

### AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ KEYFİYYƏTCƏ YENİ DÖVRÜN BAŞLANĞICI

Şuşa Bəyannaməsi beynəlxalq hüququn prinsip və normalarına, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsi üçün mühüm rol oynayacaq. Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsipləri öz əksini tapıb. Sənəddə qeyd edilir ki, tərəflərdən hər hansı birinin ərazi bütövlüyünə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edilərsə, onun aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçiriləcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstəriləcək.

Əlbəttə ki, Şuşa Bəyannaməsi Qars müqaviləsi qədər tarixi əhəmiyyətə malikdir. Dövlətlərarası əməkdaşlığın daha da möhkəmlənməsində mühüm rola malikdir.

İki ölkə, iki xalq xoş günlərin sevincini birgə bayram etdiyi kimi, ən çətin məqamlarda da bir-birilərinə arxa, dayaq durmağı bacarır. Qardaş ölkə artıq tarixdə qalan Qarabağ münaqişəsinin davam etdiyi illər ərzində həmişə Azərbaycana dəstək verirdi. Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Postmüharibə mərhələsində də qardaş Türkiyə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə start verdiyi genişmiqyaslı bərpa işlərində yaxından iştirak edir. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan müstəqil siyasət yürüdə bilən ölkədir. Dövlət siyasətinin də mütləq prioritetləri Azərbaycan xalqının və dövlətinin milli maraqlarının müdafiə olunması, eyni zamanda ölkəmizin müstəqil siyasət aparmasıdır.

Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə dövlətlərarası gələcək iş birliyinin istiqamətini göstərir. Sənəddə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilməklə yanaşı, müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır.

Əlbəttə ki, Azərbaycan ilə Türkiyə arasında olan bağlar, qardaşlıq və birlik bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik yaradır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bəşəri cinayətlər cəzasız qalmır

## *23 milyondan çox Amerika aborigenlərinin qətlə yetirilməsi bəşər tarixinin ən genişmiqyaslı soyqırımı hesab olunur*

Bəşər tarixi çoxsaylı amansız soyqırımlarla zəngindir. Tarixdə müstəmləkə siyasəti aparan imperiya cəlladları insanlara qarşı ən qəddar cinayət üsullarından istifadə etməkdən çəkinməmişlər. Bununla digər xalqların da gözlərini qorxutmaq və müqavimət niyyətində olanları qeyri-şərtsiz təslim olmağa vadar etmək olub. Yunan tarixçisi Fukidid eramızdan əvvəl V əsrdə, Pelopennes müharibəsi (431-404) zamanı afinalıların Melos adası sakinlərini son nəfərinədək məhv etdiyini yazıb. Yəni, dünya yaranandan bu günədək soyqırımı hallarına rast gəlinib. Soyqırımı anlayışının hüquqi mənası BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 A saylı qətnamə ilə qəbul etdiyi "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında" Konvensiya ilə müəyyən edilmişdir ki, hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən





məhv edilməsi niyyəti ilə aşağıdakı hərəkətləri bildirir: - belə bir qrupun üzvlərinin qətlə yetirilməsi; - belə bir qrupun üzvlərinə ciddi bədən xəsarətlərinin yetirilməsi; - hər hansı belə bir qrup üçün qəsdən onun tam və ya qismən məhvinə hesablanmış həyat şəraitinin yaradılması; - belə bir qrup arasında uşaq doğumunun qarşısının alınmasına hesablanmış tədbirlər; - uşaqların zorakılıqla bir insan qrupundan digərinə verilməsi. Soyqırımı cinayəti üçün xüsusi niyyətin olması zəruri element sayılır. Bu obyektiv soyqırımı cinayətinin digər analoji beynəlxalq cinayətlərdən fərqləndirir. Soyqırımı cinayətini təşkil edən əməllərdən hər biri şüurlu və əvvəlcədən düşünülmüş olur. Bu əməllər heç bir halda təsadüf və ya ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Soyqırımı cinayətinin təhlili zamanı onun 3 əsas hissəsi üzə çıxarılır: - məlum, milli, etnik, irqi və ya dini qrupun varlığı; - belə bir qrupun tamamilə və ya qismən məhv edilməsi niyyətinin olması. Soyqırımı qurbanlarının müəyyən edilməsinin həlledici əlaməti onların fərdiliyi deyil, məhz onların qrupa mənsubluğudur; - niyyət qrupun məhv edilməsindən ibarət olmalıdır. Soyqırımı bütöv bir insan qrupunun mövcudluq hüququnu tanımaqdan imtina etməkdir. Ayrıca bir insanın qətlə yetirilməsi (soyqırımı) ayrıca bir fərdin yaşamaq hüququnu tanımaqdan imtina kimi xarakterizə olunur.

### "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında"

İlk dəfə olaraq, kütləvi insan qətliamlarının soyqırımı sayılması təklifini 1933-cü ildə yəhudiəsilli polşalı hüquqşünas Rafael Lemkin İspaniyada keçirilən cəza hüququnun eyniləşdirilməsinə dair V beynəlxalq konfransda irəli sürmüş və uzun müzakirələrdən sonra təklifini qəbul etdirə bilmişdir. Sonradan, yeni müharibənin Almaniyanın məğlubiyyəti ilə başa çatmasından sonra Nürnberq Beynəlxalq Hərbi Tribunalı nasistləri "insanlıq əleyhinə cinayətlərin" törədilməsi barədə qərar qəbul etdi. Qərarda "genosid" sözü ittihamnamə aktma daxil edildi. "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli qətnaməsi qəbul edilmişdir. Konvensiya 19 maddədən ibarətdir. İndiyədək dünyanın 153 ölkəsi bu Konvensiyanı ratifikasiya etmişdir. 31 may 1996-cı ildə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev tərəfindən imzalanmış qərarla bu Konvensiyaya qoşulduğunu bəyan etmişdir. 25 iyun 1996-cı ildə isə Azərbaycan parlamenti bu qanunu ratifikasiya etmişdir. Konvensiya soyqırımını beynəlxalq hüquq normalarını pozan cinayət əməli kimi tövsif etmişdir. Həmin Konvensiyanın 1-ci maddəsində qeyd olunur ki, razılığa gələn tərəflər sülh və yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq soyqırımı, beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edirlər və bu cinayətin qarşısını almaq və cəza tədbirlərini həyata keçirmək öhdəliyini götürürlər. Bu sənədi imzalamış dövlətlər soyqırımının qarşısını almaq üçün tədbirlər görmək və ona görə cəzalandırmaq öhdəliklərini öz üzərilərinə götürmüşlər.

### Amerika vəhşiliyi təbliğ edən bölgə hesab olunur

Tarixi mənbələrə əsaslanaraq, demək olar ki, 23 milyondan çox Amerika aborigenlərinin qətlə yetirilməsi bəşər tarixinin ən genişmiqyaslı soyqırımı hesab olunur. Avstraliya aborigenlərinin soyqırımı da həyata keçirilmişdir. Belə ki, 1788-ci ildən başlayaraq Avstraliyada Avropa müstəmləkəçiləri məskunlaşmağa başladılar. O zaman yerli aborigenlərin sayı təxminən 750 000 nəfər təşkil edirdi. Lakin 1911-ci ildə onların sayı cəmi 31 000 nəfər idi. Onların əksəriyyəti xəstəlikdən, deportasiyadan, qətliamdan və aclıqdan həlak oldu. Almanlar tərəfindən Namibiyanın yerli xalqlarının məhv edilməsi nəticəsində 65 000 xerero (onların 80 faizi) və 10 000 nama (onlarm 50 faizi) həlak olmuşdur. 1985-ci ildə BMT Namibiya yerli xalqların məhv edilməsi cəhdini XX əsrin birinci soyqırımı aktı kimi qiymətləndirdi. 2004 ildə Almaniya hakimiyyəti Namibiyada soyqırımının törədilməsini etiraf etdi və rəsmi üzr istədi. XX əsrin ən səs-küylü genosid faktlanna nasist Almaniyası tərəfindən yəhudilərin məhv edilməsini (Xolokost), almanlar tərtib etdiyi "Ost plam"nı, İkinci Dünya müharibəsi zaman Paveliçin xorvat rejimi tərəfindən serblərin məhv edilməsini, Yaponiya ordusu tərəfindən törədilmiş beynəlxalq cinayətləri (müharibə bitdikdən sonra müttəfiqlər tərəfindən hərbi cinayətlərin törədilməsində ittiham olunan təxminən 5000 yapon hərbçisi üzərində məhkəmə prosesləri keçirilmiş və onlann 4400 nəfəri məhkum edilmiş, 1000 nəfərinə isə ölüm cəzası kəsilmişdir), 1975-1979 illərdə Pol Pot və İyenq Sari rejimi tərəfindən Kambocada 3 milyona qədər insanın məhv edilməsini, 1994-cü ildə Ruandada baş vermiş soyqırımını (bunun nəticəsində 800 minə yaxın insan həlak olmuşdur), 1995-ci ildə Srebrenisada Bosniya müsəlmanlarının Bosniya serbləri tərəfindən kütləvi qırğınını, Darfurda yerli əhalinin soyqırımı (BMT hesablamalarına əsasən, həlak olanların sayı 180 mindən artıqdır) və s. aid etmək olar. Qəbul edilən qərarlara və yuxarıda qeyd olunan prinsiplərə əsasən, demək olar ki, ermənilərin 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhərində törətdikləri kütləvi insan qətliamı soyqırımı aktları kateqoriyasına aiddir. Ermənilərin törətdiyi bu soyqırımı nəticəsində 613 nəfər azərbaycanlı, o cümlədən, 63 azyaşlı uşaq, 106 qadın, 70 qoca qətlə yetirilmişdir. 8 ailə bütövlükdə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş, 487 nəfər yaralanmış, onlardan 76-sı uşaq, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər isə itkin düşmüşdür. Xocalı hadisələrini beynəlxalq hüquq əsasında soyqırımı cinayəti aktı kimi tövsif etməyə imkan verir: 1. BMT Baş Assambleyası tərəfindən 260 A (III) saylı qətnamə ilə qəbul edilmiş 9 dekabr 1948-ci il tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar" Konvensiyası. 2. Nörnberq Hərbi Tribunalının Nizamnaməsi. 3. Beynəlxalq Cinayət Tribunalının Yuqoslaviya üzrə Nizamnaməsi (maddə 4). 4. Beynəlxalq Cinayət Tribunalının Ruanda üzrə Nizamnaməsi (maddə 1). 5. Beynəlxalq Cinayət Məhkəməsinin statusu (maddə 6). 6) Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (maddə 103). 7) Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı. Beləliklə, Xocalı şəhərində əhaliyə - ermənilər tərəfindən etnik azərbaycanlılara qarşı törədilmiş hərəkətlər beynəlxalq hüquqi sənədlərə uyğun olaraq soyqırımı kimi tövsif olunur və beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq bəşəriyyətə qarşı cinayətdir.

### Ermənistanın Xocalıda törətdiyi soyqırımı aktı bəşəriyyətə qarşı cinayətdir

Xocalı soyqırımı şahidlərinin ifadələrindən və aparılan araşdırmalar zamanı məlum olmuşdur ki, ermənilər tərəfindən qətlə yetirilmiş azərbaycanlı uşaqların sinəsi yarılıb ürəkləri parçalanmış, əksər meyitlər isə tikə-tikə doğranmışdır. Təbii ki, bu cinayət cəzasız qalmayacaq. BMT Təhlükəsizlik Şurası beynəlxalq cinayət törətmiş fiziki şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün "ad hoc" qaydasında ilk dəfə 23 fevral 1993-cü il tarixli 808 nömrəli və 25 may 1993-cü il tarixli 827 nömrəli qətnamələrinə əsasən "1991-ci ildən keçmiş Yuqoslaviya ərazisində törədilmiş beynəlxalq humanitar hüququn ciddi pozuntularına görə məsuliyyət daşıyan şəxslərin təqib edilməsi üzrə Beynəlxalq Tribunal" yaratmışdır. Bu tribunalın əsasnaməsi də təsdiq olunmuşdur. Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının (KYBCT) birinci hökmü 29 noyabr 1996-cı ildə çıxarılmışdır. Ümumilikdə 144 məhkəmə prosesi keçirilmişdir (o cümlədən, 94-ü serblərə, 33-ü xorvatlara, 8-i Kosovo albanlarına, 7-si Bosniya müsəlmanlarına və 2-si makedoniyalılara qarşı). Həm də Haaqa Tribunalının ittihamları Bosniya serblərinin rəhbəri P.Mladiç və R.Karadiçə qarşı da irəli sürülmüşdür. İkinci Beynəlxalq Tribunal Ruanda (RBCT) üzrə yaradılmışdır. Bu məhkəmənin vəzifəsi 1994-cü ildə Ruandada və qonşu ölkələrdə soyqırımının bəşəriyyət əleyhinə cinayətin araşdırılması idi. BMT Təhlükəsizlik Şurasının 1994- cü il noyabrın 8-də qəbul etdiyi 955 saylı qətnaməsinə əsasən, "1994-cü ilin 1 yanvarından 31 dekabrına qədər Ruanda ərazisində və qonşu dövlətlərin ərazilərində törədilən soyqırımı və digər oxşar pozuntulara görə məsuliyyət daşıyan Ruanda vətəndaşları tərəfindən törədilən beynəlxalq humanitar hüququn ciddi pozuntularına görə məsuliyyət daşıyan şəxslərin məhkəmə qaydasında təqib edilməsi üzrə Beynəlxalq Tribunal" yarandı və onun əsasnaməsi təsdiq olundu.

### Xocalıda uşaqları öldürən, ailələri məhv edən Koçaryan və Sarkisyan da məhkəmə qarşısına çıxarılmalıdır

Beynəlxalq qanunlara əsasən, Xocalıda qətliamlar törətmiş Sarkisyanın, Koçaryanın, Ohanyanın və digər vəhşilərin məhkəmə qarşısına çıxarılaraq cəzalandırılması ədalətin qismən də olsa bərpası demək olar. İngilis jurnalisti Tomas de Val "Qarabağ" kitabında konkret olaraq göstərir ki, Xocalı soyqırımının törədilməsi ilə bağlı Serj Sarkisyana sual etdikdə, o, Xocalı soyqırımını bilərəkdən törətdiklərini etiraf edib: "Serj Sarkisyan dedi ki, azərbaycanlılar elə bilirdi ki, zarafat edirik, biz Xocalıda heç bir cinayət törətməyəcəyik. Amma biz azərbaycanlılara sübut etdik ki, bunu bacarırıq". Artıq Azərbaycan 44 günlük Vətən Müharibəsi və daha sonra 23 saat 44 dəqiqə çəkən antiterror tədbirləri ilə ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Artunyan, Vardanyan, Qukasyan, Saakyan və digər soyqırımı aktlarını törədənlər cəngavər oğullarımız tərəfindən həbs edilibər və əlləri qandallı Bakıya gətirilərək istintaqa təhvil verilibər. Onları ən ağır cəzanın gözlədiyi şübhəsizdir. Lakin bu yetərli olmamalıdır. Xocalıda uşaqları öldürən, ailələri məhv edən Koçaryan və Sarkisyanda məhkəmə qarşısına çıxarılmalıdır. Əminəm ki, günün birində o cəlladlar da həbs ediləcək və Azərbaycanın istintaq orqanlarına təslim olunacaqlar. Xocalı soyqırımının dünya dövlətləri tərəfindən tanıdılması istiqamətində fəaliyyət daha da gücləndirilməlidir. Aparılan təbliğat informasiya müharibəsi səviyyəsindən çıxaraq hüquqi müstəviyə keçməlidir.

**İ.ƏLİYEV**

***İndi Azərbaycanda 5, 7, 12 uşaqlı ailə görəndə təəccüblənirik. Lakin vaxtilə Azərbaycan keçmiş SSRİ məkanında çoxuşaqlı anaların sayına görə digər ittifaq respublikaları ilə müqayisədə ön sıralarda olub. İndi isə hər bir Azərbaycan ailəsində maksimum 3 uşaq var. Bəs çoxuşaqlı ailədən azuşaqlıya keçid ailə dəyərlərinə təsir edirmi? Ümumiyyətlə, uşaqların tərbiyəsində rol oynayırmı? SİA mövzu ilə bağlı araşdırma aparıb.***





# "Qəhrəman ana"lar yoxa çıxır





ARAŞDIRMA

Təkuşaqlı ailələrin artmasının sosial-psixoloji səbəbləri də ön sıralardadır. Ailədə uşaqların sayının azalması ailənin reproduktiv və tərbiyə funksiyalarının müəyyən qədər pozulmasına dəlalət edir. Müasir dövrdə uşaq böyütmək, hərtərəfli təhsil vermək, gələcəyini təmin etmək çətindir. Belə olduqda əksər ailələr bir uşaqla kifayətlənir. Bu gün Azərbaycanda ailə strukturu uşaqların sayı baxımından tamamilə fərqlidir. Təkuşaqlı ailədə uşaq valideynlərin əzizlədiyi yeganə qayğı və diqqət obyektinə çevrilir, bu da çox hallarda uşağın müstəqillik və yetkinlik şüurunun formalaşmasının gecikməsinə səbəb olur. Müasir ailə modelində ailə quranların fərdi seçimi üstün meylə çevrilib. Ailə qurmaq və boşanmaqla bağlı seçimlər də fərdi verilir.

Sosioloq Aynur Hacıyeva isə deyir ki, çoxuşaqlılıqdan azuşaqlılığa keçid sosioloji problemlər yaradır: "Əvvəlki ailələrdə bir uşaq dünyaya gələndə artıq digər uşaqlar böyümək üzrə olurdu. Uşaqlar bir-birilə ünsiyyət qurur, qidasını, oyuncağını, paltarını paylaşırdı. Yeni doğulan uşaq da doğulduğu zaman bu vərdişləri görüb, çətinlik çəkmədən onlara yiyələnirdi. Lakin indi doğulan uşaqların ailədə ünsiyyət problemləri olur. Valideynlər işləyir, onlara vaxt ayıra bilmir, məktəb, bağça vaxtında isə şikayət edirlər ki, uşaqlar sosiallaşa bilmir. Azuşaqlı ailələrdə adaptasiya və ünsiyyət problemi olur. Azuşaqlı ailə gələcəkdə qohumluq əlaqələrinin pozulmasına gətirib çıxarır. Təbii ki, keçmişdə də valideynlər işləyirdi. Lakin valideynlər işdə olanda ailənin yaşca böyük övladları onları əvəz edirdi. Onlar digər körpə bacı-qardaşlarına nəzarət edirdilər. İndi isə vəziyyət dəyişib. Ailələrdə bir, ya da iki uşaq olur. Onlar özləri də körpə olduqları üçün özlərinə nəzarət edə bilmirlər. Məcburən hansısa dayənin nəzarətində tək böyüməli olurlar. Gələcəkdə onların qohumluq əlaqələri də zəifləyir. Xala, dayı, əmi, bibi ya olmur, ya da ikisindən biri olur. Keçmişdə hər hansı bir problem yaşandıqda köməyə qohumlar çatırdı. Xala, bibi, dayı olmadığı üçün gələcəkdə uşaqlara dəstək olacaq qohumlar da olmayacaq".

## Heç kim qəhrəman olmaq istəmir

Sovet dövründə "çoxuşaqlı ailə" məfhumu 4-dən çox uşağı olan ailələrə şamil olunurdu. SSRİ-də "Qəhrəman ana" medalı da vardı ki, bu medal 10 və daha çox övladı olan qadınlar üçün 1944-cü ildə təsis edilmişdi. Məqsəd isə əhalinin sayının azalmasının, artımın aşağı düşməsinin qarşısını almaq idi. Bu gün ölkəmizdə 6 və daha çox uşağı olan ailələr çoxuşaqlı ailə hesab edilir. Prezident İlham Əliyevin 27 dekabr 2013-cü il tarixli "Beşdən çox uşağı olan qadınlara müavinətin məbləğinin müəyyən edilməsi haqqında" Fərmanına görə, 2014-cü ilin əvvəlindən yeni sosial təminat növünün- 5-dən çox uşağı olan qadınların 18 yaşına çatmamış hər bir uşağına görə aylıq sosial müavinətin verilməsinə başlanılıb. Prezident İlham Əliyevin 15 aprel 2019-cu il tarixli Fərmanı ilə aprelin 1-dən digər bir çox sosial ödənişlər kimi, 5-dən çox uşağı olan qadınların hər uşağına görə aylıq müavinət də 33 manatdan 55 manata çatdırılıb. Yəni, ailədə 18 yaşına çatmamış 6 uşaq varsa, həmin ailəyə aylıq 330 manat, 7 uşaq varsa 385 manat verilir.

Rəqəmlər isə onu deməyə əsas verir ki, bugünkü Azərbaycan qadınlarının 57,3 faizi nəsilvermə qabiliyyətinə malikdir. Orta hesabla hər 10 qadın dünyaya 23 uşaq gətirir. Lakin bu faktları şərh edərkən nəzərə almaq vacibdir ki, bir çox anaların yalnız bir övladı var. Üstəlik, dünyaya uşaq gətirmək yaşında olan qadınların bir çoxu hələlik ana deyil.

## Ailədə uşaq təkdirsə həm xoşbəxtdir, həm bədbəxt...

Tək uşaq olmanın həm üstünlükləri, həm də mənfi cəhətləri mövcuddur. Mütəxəssislər hesab edirlər ki, tək uşaq bacı-qardaşlar arasında olan yarış və qarşıdurma vəziyyətlərini yaşaya bilmədiyi üçün akademik olaraq daha müvəffəqiyyətli ola bilər. Ancaq tək uşaq yetkinlikdən əvvəlki dövrdə ailələrinə qarşı bəzi mövzularda birlikdə mübarizə verə biləcəkləri bacı-qardaş əskikliyini hiss edə bilərlər. Lakin ümumilikdə tək uşaq bacı-qardaşı olan uşaqlara nisbətən çox da fərqli deyil. Əslində uşağın tək uşaq olmasından çox, necə böyüdüldüyü əhəmiyyətlidir. Bir bacı və ya qardaşın olmasından çox, ananın böyütmə təcrübəsi, uşağın qəbul etməsi, rədd etməsi, sözə qulaq asması və ya asmaması və ona qarşı səbirli olub-olmaması uşağın ruhi sağlamlığı baxımından daha əhəmiyyətli yer tutur.

Ekspertlər isə hesab edir ki, hazırda ailələrdə uşaq sayının az olmasının əsas səbəblərindən biri boşanma hallarının çoxalmasıdır. Bu hal isə bir növ ailələrin sığortalanmamağından irəli gəlir. Elə olur ki, bəzi ailələr təsadüf nəticəsində qurulur. 15 gün tanıdığı biri ilə ailə qurmaq qərarına gələnlər var. Nəticədə evlilik daxilində problemlər yaranır və tərəflər boşanmağa qərar verirlər. Bu isə son nəticədə doğulan uşaqların sayına təsir göstərir. Əslində demoqrafik təhlükə hər zaman gözlənilir. Əvvəllər Azərbaycanda çoxuşaqlı ailələrin sayı kifayət qədər idi. Azuşaqlı ailələr demək olar ki, tək-tük idi. İndi isə bu əksinədir. Ailələr bir, ən yaxşı halda iki uşaqla kifayətlənirlər. Artıq üçuşaqlı ailələri çoxuşaqlı ailə kimi qəbul edirik. Bu mənada demoqrafik risklər mövcuddur. Problemin həllim üçün ailə modelinin üzərində işləmək lazımdır. Ailə davamlı olmalıdır ki, dünyaya gələn uşaqlar da bir növ sığortalanmış olsun. Doğulan uşaqların sayının azalmasının digər bir səbəbi isə sosial rifahla bağlıdır. Ailələrin sosial təminatı nə qədər güclü olarsa, çoxuşaqlı ailələrin sayı bir o qədər artar.

## İnsanlar daim pul qazanmalıdır

Psixoloqlar bildirir ki, ailədə iki və daha artıq uşağın olması uşaqların gələcəkdə özgüvənlərinin yüksək olmasına təsir edir. Çünki bacı, qardaş bir-birinə mənəvi dayaqdır. Lakin çoxuşaqlı deyil, bir və ikiuşaqlı ailələrin sayı artır. Təkuşaqlı ailələrdə uşağın eqoistlik və özünəqapanma problemləri olur. Amma bu, təkcə Azərbaycanda deyil, bütün dünyada belədir. İnsanlar daim işləməli və pul qazanmalıdırlar. Ana da, ata da çalışmalıdır. Bunu nəzərə alan valideynlərimiz bir, maksimum iki uşağa üstünlük verirlər. Burada valideynləri qınamaq da olmaz. Amma bəzən də 2-3 uşaq saxlamağa imkanı olan valideynlər bundan imtina edir, tək uşaqla kifayətlənirlər.

## Dünya ölkələri əhalisinin sayını artırmağa çalışır

Rusiya, Ukrayna, Fransa, İsveç, Finlandiya, Çexiya kimi ölkələrdə çoxuşaqlı ailələrə təminatlarla bağlı müvafiq qanunlar qəbul olunub, ailələri daha çox uşaq dünyaya gətirməyə təşviq edirlər. Fransada 1921-ci ildən bəri "Böyük ailə" adlı dövlət proqramı həyata keçirilir. Uşaqların yaşı 20-dən azdırsa və qeydiyyatdan keçmiş vergi ödəyicisisinizsə, uşaqlı ailə müavinətləri və imtiyazları mövcuddur. Birdəfəlik müavinətlər ilk doğuşdan başlayır və əkiz və ya üçəm uşaq dünyaya gətirsəniz belə, hər uşaq üçün ayrılıqda birdəfəlik 950 avro ödənilir. Əgər övladlığa götürürsünüzsə, bu ödəniş 1900 avroya qədər artır. Ancaq uzunmüddətli uşaq müavinəti yalnız iki uşağınız olarsa verilir. Yəni cəmi bir uşağınız varsa, üç yaşına kimi gəlirdən asılı olaraq 92 və ya 184 avro verilir. Amma ailə tərkibinizi artırmaq niyyətinə düşsəniz dövlət sizə hər ay uşaqlara görə dəstək göstərəcək.

Rusiyada hamilə kimi qeydiyyata düşən qadına hamiləliyin 6-cı həftəsindən doğuşadək aylıq 6.350 rubl (140 AZN) pul ödənilir. Doğandan sonra uşaq 3 yaşına çatanadək ayda 11.300 rubl (250 AZN), 3-dən 7 yaşına kimi hər ay 8.475 rubl (187 AZN), 16 yaşına kimi isə ayda 5.650 rubl (125 AZN) uşaqpulu ödənilir. Bundan əlavə doğulan hər vətəndaşı üçün dövlət 450. 000 rubl (10.000 AZN) dəyərində sertifikat verir, bu məbləği valideyn əmlaka yatıra bilər, ipoteka ilə ev alanda ilkin ödəniş kimi verə bilər. 3-cü uşaq üçün isə torpaq sahəsi və yaxud ev verilir. Uşaqların 1 yaşına kimi əlavə qidası, bezi, meyvə püreləri, südü hər ay dövlət tərəfindən verilir.

***Ləman Sərraf***

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər






“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il oktyabr ayının 12-də YAP Ağdaş rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Ağdaş rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda xatirə fotosu çəkdirilib.

# Erməni havasına oynayan “namizədlər”






Dünyada erməni təbliğatına boyun əyən, onun təsiri altına düşən siyasətçilər az deyil. Onlar Avropadada var, okeanın o tayında da. Maraqlıdır, o siyasətçiləri yalan danışmağa, əldə oyuncaq olmağa vadar edən nədir? Pul, var-dövlət, cah-cəlal? Bunlar da mümkündür, amma məsələnin kökündə başqa məsələlərin dayandığı gün kimi aydındır. Əsla, demirik ki, erməni lobbisinin puluna hava oynayan Qərb siyasətçiləri yoxdur, var, həm də çoxdur. Amma burada müsəlman düşmənçiliyi amili özünü daha qabarıq şəkildə göstərir.

Görəsən, 30 il ərzində Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı barədə bir kəlmə də danışmayan, evindən, isti ocağından qovulan azərbaycanlıların haqqlarını görməzdən gələnlər, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə biganə yanaşanlar niyə indi səslərini çıxarırlar? Dünyaya ağalıq etmək iddiasına düşənlərin meyysündə təkcə ikili standart üsulumu yazılıb. Belə ağalıq, belə vəkillikmi olar?

RAKURS

Bu gün Azərbaycanda ABŞ prezidentliyinə namizəd Vivek Ramasvamini tanımayan yoxdur. Yox, əslа, bu amerikalı Azərbaycan üçün yaxşı heç nə etməyib. Yalandan, ziyandan başqa. Amerikanın Erməni Milli Komitəsindən (ANCA) aldığı bəxşişlər hesabına ermənilərin Azərbaycana qarşı apardıqları qarayaxma kampaniyasına dəstək olan bu amerikalı həyasızlığın bütün normalarını geridə qoyub, hətta erməniləri də təəccübləndirib. Məsələ burasındadır ki, prezidentliyə namizəd özünün social şəbəkə hesabında Ermənistanın Gəncə şəhərini ballistik raketlə bombalaması kadrlarını guya Azərbaycanın erməni şəhərinə zərbəsi kimi təqdim edib. Ciddi müzakirələrə səbəb olan bu hadisəyə Cənab Prezidentin də münasibəti sərt olub. Bildirib ki, Qərbdəki erməni havadarları Azərbaycana qarşı iyrənc təxribata və yalançı kampaniyaya əl ataraq hər şeydə bizi ittiham edirlər. Burada əsas skripkanı çalan Fransadır və bu, həm sözügedən ölkənin rəsmi şəxslərinin bəyanatlarında, həm Azərbaycanın diskreditasiya edilməsi cəhdlərində, həm də Azərbaycana qarşı aparılan və hər şeyin alt-üst şəkildə təqdim edildiyi media kampaniyasında özünü büruzə verir. Azərbaycan işğalçı kimi təqdim edilir, Ermənistan isə qurban kimi qələmə verilir.

Prezident İlham Əliyev amerikalı prezidentliyə namizədin fikirlərinə toxunaraq qeyd edir ki, 30 illik işğalın tarixi, bütün şəhər və kəndlərimizin yerlə-yeksan edilməsi, Xocalı soyqırımı – bütün bunların hamısı, təbii ki, inkar edilir, tamamilə yalanla dolu hekayələr uydurulur: “Dünən mənə bir videosüjet təqdim etdilər. Həmin videoda ABŞ prezidentliyinə namizəd Azərbaycana qarşı ittihamlarla çıxış edir və bu zaman ermənilər tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması ilə bağlı kadrları nümayiş etdirir. Belə saxtakarlığa və həyasızlığa yol verəcək qədər simasızlaşmaq qeyri-mümkündür. İkinci Qarabağ müharibəsi zamanı Ermənistan münaqişə zonasından yüz kilometrlərlə uzaqda yerləşən şəhərlərimizi uzaqmənzilli artilleriyadan, o cümlədən ballistik raketlərdən atəşə tutdu. Bunun nəticəsində bizim uşaqlar da daxil olmaqla, yüzdən artıq mülki vətəndaşımız həyatını itirdi. Məhz sözügedən həmin namizəd, Azərbaycanı ittiham edərək, ermənilərin Gəncəyə və Bərdəyə hücumlarının kadrlarını nümayiş etdirir. İndi bu insanlarla necə danışmaq olar, onlara nəyi izah etmək olar?”.

Bu, ilk belə faktlar deyil ki, Qərb siyasətçiləri altına imza qoymasınlar. Məsələ burasındadır ki, bu biabırçılıqdan sonar Amerikanın Erməni Milli Komitəsi həmin videonu dərhal bloklamalı oldular. Bəli, biz indi Azərbaycana qarşı aparılan misli görünməmiş informasiya müharibəsi ilə üz-üzə qalmışıq. Azərbaycan tək olsa da ləyaqətlə mübarizə aparır, ermənilərin ruporuna çevrilmiş qərəz maşınına – Qərb mediasına qarşı savaşdan bir addım da geri çəkilmir.

Bu oyunların başında müstəmləkəçilik tarixinə qara ləkələr həkk edən Fransa kimi ölkələr durur. Onların maliyyə imkanları kimi yalan informasiya şəbəkəsi də genişdir. Amma həqiqət yalana həmişə qalib gəlib, bundan sonra da bu gücləri neytrallaşdırmaq əzmindəyik. Başqa yol yoxdur.

***V.SALAH***

# “Nar”və NETTY ən yaxşı internet layihələrini mükafatlandıracaq




“Nar” Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarının sahəsində irəli sürülən təşəbbüslərə dəstək olmaq məqsədilə, “Netty”ilə əməkdaşlığını davametdirir. “Netty”münsifləri hər il Azərbaycanın ən yaxşı İT layihələrini və mühüm veb-resurslarınımükafatlandırırlar. Müsabiqəyə qatılmaq üçün netty.az saytına daxil olaraq layihəniziaşağıdakı9 nominasiya üzrə təqdim edə bilərsiniz:

- Dövlət və Elektron Cəmiyyət
- Sosial məsuliyyət və cəmiyyət
- Biznes və sahibkarlıq
- Maliyyə və banklar
- Elektron ticarət və kommersiya
- Elm, təhsil və innovasiya
- Səhiyyə, idman və turizm
- Məlumat və xəbərlər
- Mədəniyyət və incəsənət

Hər nominasiyanın 3 alt kateqoriyası var: Vebsaytlar, Tətbiqlər, Sosial kanallar və səhifələr. İştirak ərizələrinin qəbulu üçün son gün 30 noyabr 2023 tarixidir.

“Nar”-ın baş tərəfdaşlığı ilə keçirilən “Netty” Milli İnternet Mükafatı 20 ilə yaxındır ki, Azərbaycan seqmentində həyata keçirilən müxtəlif layihələri tanıdır və mükafatlandırır.“Netty” mükafatı ilə tərəfdaşlıq “Nar”ın Azərbaycanda İKT sahəsinin tərəqqisinə yönələn koporativ sosial məsuliyyət (KSM) layihələrinin məntiqi davamıdır. “Nar”ın layihələri haqqında daha ətraflı: nar.az/projects

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

***Hər il oktyabrın 13-ü "Ümumdünya Təbii Fəlakət Riskinin Azaldılması Günü" kimi qeyd olunur. Bu, təbii fəlakətlərdə risklərin azaldılması, fəlakətlərin səbəblərini təhlil etmək və azaltmaq məqsədi daşıyan sistematik tədqiqatları ehtiva edən bir konsepsiyadır.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

ARAŞDIRMA

# Təbii fəlakət: minimum tələfat üçün nə etməli?

### Təhlükəyə hazırlıq səviyyəsi gücləndirilməlidir

Bu konsepsiya fəlakət riskinin azaldılması, idarə edilməsi və fəlakətlərə hazırlıq kimi xırdalıqları əhatə edir. Təbii fəlakətlərdə riskin azaldılması tədqiqatları cəmiyyətin hər bir təbəqəsini, dövlət və özəl sektorun bütün bölmələrini əhatə etməli, bütün təbəqədən insanlar bu barədə məlumatlandırılmalıdır. Çünki təhlükəsiz həyat hər cür təhlükələrə qarşı bilikli və hazırlıqlı olmaqla mümkündür.

Bunun üçün ətrafımızda baş verə biləcək fəlakət riskləri barədə məlumatlı olmalı, fəlakət riski olan ərazilərdən kənarda yeni yaşayış massivləri salmalı, təhlükə mənbələrinə yaxın yaşayırıqsa, binamızın müvafiq təhlükəsizlik səviyyəsində tikilməsinə əmin olmalıyıq. Təbii fəlakətlərə və fövqəladə hallara qarşı "ailə planı", əsas ehtiyacları ödəmək üçün "təcili yardım çantası" hazırlanmalıdır. İlk yardım, o cümlədən təbii fəlakətə hazırlıq təlimləri və məlumatla təmin olunmalı, fəlakətlər və fövqəladə hallar zamanı düzgün davranışı öyrənməli və uşaqlarımızı öyrətməliyik.

Zəlzələ, sel, fırtına kimi vəziyyətlər bizim nəzarətimizdə olmayan təbii hadisədir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1989-cu ildə oktyabrın 13-nü "Fəlakət Riskinin Azaldılması üzrə Beynəlxalq Gün" elan edib. Hər il bu əlamətdar gündə təşkil edilən tədbirlərlə dünyada fəlakət risklərinin aşkar edilməsi və azaldılması ilə bağlı məlumatlılıq artırılır.

### Zəlzələdən ən az tələfatla necə çıxmalı?

Zəlzələlər səbəblərinə görə müxtəlif növlərə bölünür. Dünyada tez-tez baş verən və böyük fəsadlar törədən zəlzələlər tektonik zəlzələlərdir. Bundan başqa vulkanların püskürməsi nəticəsində baş verən zəlzələlər vulkanik zəlzələlərdir. Bu zəlzələlər vulkanlarla əlaqəli olduğundan lokal xarakter daşıyır və ciddi ziyan vurmur. Yeraltı mağaralarda, mədənlərdə, duzlu və gipsli torpaqlarda ərimə nəticəsində yaranan boşluqların yaratdığı tavan blokunun çökməsi nəticəsində baş verən zəlzələlər çökmə zəlzələləridir. Onların təsirləri yerlidir və enerjiləri azdır.

Zəlzələnin harada və hansı böyüklükdə olacağını təxmin etmək olar, lakin nə vaxt baş verəcəyini müəyyən etmək mümkün deyil. Bir bölgədə zəlzələ baş verdikdən sonra əsas zəlzələdən daha az bal gücündə şok dalğalar baş verir və zaman keçdikcə şokların sayı və gücü azalır. Zəlzələdən ən az tələfatla çıxmaq üçün binalar mütəxəssislər tərəfindən tikilməlidir. Binaların alt qatını icarəyə verərkən sütunların kəsilməsi binaların təhlükədə olmasına yol açır.



Zəlzələ zamanı kvadrat, silindr və ya düzbucaqlı binalar silkələnməyə daha davamlıdır. Bu formalı binalar təkan zamanı hərəkət edir və rahatlıqla o yan-bu yana yellənir, lakin yıxılmır. Binalar arasında boşluq olmalıdır ki, titrəyərkən və ya yellənərkən bir-birinə dəyməsin. Təhlükəsiz zəmin yoxdur, yalnız təhlükəsiz bina var. Texnologiya sayəsində müxtəlif səthlər üçün uyğun bina tikilə bilər. Yetər ki, bu binanı mütəxəssis tiksin.



### Yerə çök və özünü qoru

Unutmayaq ki, zəlzələ anında özümüzü və ailə üzvlərimizi qorumaq və bədənimizi təhlükələrdən qorumaq birinci davranışdır. Evdəki qiymətli əşyalarınızı, ziynətlərinizi, sənədlərinizi götürmək üçün yerinizdən tərpənməməyiniz vacibdir. Qonşu Türkiyədə baş verən dağıdıcı zəlzələdə həlak olan minlərlə insan məhz bu səbəblə evinə girdiyi üçün öldü.



Təkanı hiss etdiyiniz anda yerə çöküb bədənimizi mümkün qədər kiçiltməliyik. Çöməlmək deyil, diz üstə çökməliyik. Əllərimizlə üzümüzü və başımızı zərbələrdən qorumalıyıq. Əgər zəlzələ anında dəhlizdə, qonaq və ya başqa bir otaqdasınızsa daxili divardan dəstək alaraq çökmə-qorunma hərəkəti etməliyik. Əgər açıq ərazidəyiksə, özümüzü binalardan, aşmaq ehtimalı olan bütün dirəklərdən qorumalıyıq.



Evi tərk etmədən əvvəl təbii qazı, işığı, suyu söndürməliyik. Yanımızda fənər olmalı və onunla işıqlandırmanı təmin etməliyik. Asan evakuasiya üçün evlərdə, məktəblərdə və iş yerlərindəki qapıların çölə açıldığına əmin olmalıyıq. Xroniki xəstəliyimiz varsa, dərmanlarımızı götürməliyik. Liftlər və pilləkənlər zəlzələ zamanı təhlükəli yerlərdir. Çalışıb pilləkanla enməli, zəlzələ təkanını pilləkanda hiss etsək "yerə çök və özünü qoru" taktikasından istifadə etməliyik.

### Sel və daşqınlardan necə sığortalanmalı?

Daşqınlar dünyada çox yayılmış və dağıdıcı təhlükələrdən biridir. Daşqın, çayın, dənizin, yağış sularının, ümumiyyətlə, suyun öz səviyyəsindən yuxarı qalxması və ya başqa yerdən gəlməsi və quru səthləri örtməsi zamanı baş verir. Daşqınlar insan tələfatı ilə yanaşı, yollar, dəmiryolları, hava limanları, elektrik xətləri, su yolları və kanalizasiya sistemləri kimi infrastruktura da ziyan vurur və iqtisadiyyata mənfi təsir göstərir. Xüsusilə, daşqın ehtimalı nəzərə alınmadan yaradılan strukturlar və infrastrukturlar bu təbii hadisənin fəlakətə çevrilməsinə səbəb ola bilər.

Daşqınlar heç də həmişə yağış yağan yerlərdə baş vermir. Ən günəşli və quru təbiəti olan ərazilər belə uzaq məsafələrdən gələn sel suları ilə daşqına məruz qala bilər. Buna görə də meteoroloji xəbərdarlıqları nəzərə almaq faydalıdır. Daşqınların əsas səbəbləri şiddətli yağış, daşan çaylar, göllər, su basmış sahillər, tez əriyən qar, çökən bəndlər ola bilər. Daşqınlar 1-2 sm dərinlikdə və ya bir evin damını örtəcək səviyyədə ola bilər.

Binanın daxilində və xaricində daşqın riskinin az olduğu daha yüksək və təhlükəsiz yerləri müəyyənləşdirin. Zərər görməməsi üçün qiymətli əşyalarınızı, sənədlərinizi, ailə fotolarınızı yuxarı mərtəbələrə daşıyın. İçməli su və qida ehtiyatı yaradın. Daşqın sularına girməyin, suya toxunmayın, çünki elektrik naqilləri ilə təmasda ola və cərəyan ötürə bilər.

### Torpaq sürüşməsi və qar uçqunları barədə məlumatlılıq azdır

Sürüşmə – müxtəlif amillərin təsiri ilə təbii süxurun, qruntun və ya süni doldurucu materialın aşağıya doğru sürüşməsi nəticəsində baş verən təbii təhlükədir. Yamacların ətəklərində, maili yollarda aparılan qazıntılar nəticəsində sürüşmələr yaranır. Dik yamaclarda sürüşmə ehtimalı daha yüksəkdir. Torpaq sürüşmələri adətən yaz aylarında yağıntıların və qarın əriməsinin çox olduğu vaxtlarda baş verir.

Bunlara əlavə olaraq, yamacda həddindən artıq tikinti, zəlzələ, vulkan püskürməsi və nəqliyyat yükü yamacda sürüşməni aktivləşdirir. Bitki örtüyünün məhv olması, yamacdakı materialın su ilə daha asan doyması, həddindən artıq yağıntı və qarın qəfil əriməsi kimi amillər sürüşmələrə səbəb ola bilər.

Məlumdur ki, gilli torpaqlar su ilə təmasda olur, qabarır və sürüşkən olur, sürüşmə əmələ gəlməsini sürətləndirir. Sürüşmə və eroziya anlayışları çox vaxt bir-biri ilə qarışdırılır. Eroziya münbit torpaqların təbii və ya xarici qüvvələr nəticəsində yarandığı yerlərdən aşınmasıdır. Eroziya münbit torpaqların təbii və ya xarici qüvvələrin təsiri altında yarandığı yerlərdən aşınması və başqa yerlərdə çökməsi kimi müəyyən edilən təhlükədir. Sürüşmə kimi ani təsir göstərmir, dağıntıya səbəb olmur, lakin baş verdiyi bölgədə uzunmüddətli qısırlıq, səmərəsizlik və quraqlıq təsirləri yaradır. Bir sözlə, eroziya sürüşmə kimi geoloji fəlakət deyil, bioloji fəlakət sayılır.

Sürüşmənin olacağı ehtimalını əvvəldən bilmək olar. Torpaqda əvvəllər olmayan su sızmaları müşahidə edilirsə və su ilə doymuş ərazilər əmələ gəlirsə, torpaqda çatlar yaranırsa, telefon dirəklərində, hasarlarda və ağaclarda yamaca meyilli əyilmə yaranırsa, yollarda çatlar əmələ gəlirsə, bunlar sürüşmə əlamətləri hesab edilir. Sürüşmə əlamətləri göründükdə, ərazi gecikmədən tərk edilməli və səlahiyyətli orqanlara məlumat verilməlidir.

Uçqun dağlıq və maili, ümumiyyətlə, bitki örtüyü olmayan ərazidə böyük miqdarda yığılmış qar örtüyünün cazibə qüvvəsinin təsiri ilə sürüşməsi nəticəsində baş verən təbii təhlükədir. Ümumiyyətlə, uçqunun baş verməsi üçün yamacın 28 dərəcə olması kifayət edir. Bundan əlavə, kölgədə olan yerlərdə uçqun təhlükəsi günəş işığına məruz qalan yerlərdə olduğundan daha yüksəkdir.

Uçqunun axınının istiqamətini, sürətini və yolun enini nəzərə alaraq, sürətlə uçqunun daha yavaş və daha az hündürlükdə olduğu kənarlara çıxmağa çalışın. Uçqun altında qalmağınız qaçınılmazdırsa, ayaqlarınızı və qollarınızı bir-birinə yapışdıraraq, yeri möhkəm itələyərək yerdən qalxmağa çalışın. Üzməklə axan qarın üstündə qalmağa çalışın. Qarın yuxarı tənəffüs yollarına daxil olmasının qarşısını almaq üçün ağzınızı və burnunuzu paltarınızla örtün.

### Meşə yanğınları ən çox zərər verən təbii fəlakətlərdəndir

Meşələr dünyanın ağciyərləridir, çünki canlıların yaşaması üçün lazım olan oksigenin böyük hissəsini təmin edir. Meşələr bitki və heyvanlar üçün təbii su mənbəyidir. Həmçinin, meşələr bitki örtüyündə və torpaqda böyük miqdarda karbon saxlayır ki, bu proses də iqlimə müsbət təsir edərək qlobal istiləşmənin qarşısını alır. Su buxarını kondensasiya edərək yağışın yağmasına səbəb olur. Meşələr vəhşi təbiəti qoruyur və heyvanların sağ qalmasını təmin edir. Bundan əlavə, meşələr daşqınların, sürüşmələrin, uçqun təhlükələrinin, həmçinin səhralaşmanın və havanın çirklənməsinin qarşısını alır.

Yanğınlar meşələrin mövcudluğu üçün ən böyük təhlükədir. Xüsusilə, yay aylarında təbii və ya insan faktorları nəticəsində baş verən yanğınlar yüz illər boyu böyüyən ağacların qəfil məhvinə, təbii tarazlığın pozulmasına, meşədə canlı növlərinin və təbii yaşayış yerlərinin nəsli kəsilməsinə, torpaqda üzvi maddələrin itirilməsinə səbəb olur. Meşə yanğınları adətən hiss olunmadan başlayır, sürətlə yayılır, bütün meşəni məhv edir. Yanğınlar ildırım çaxması, vulkan püskürməsi və yüksək temperatur kimi səbəblərdən, həmçinin səhlənkarlıq, ehtiyatsızlıq və qəsdən baş verir.

Meşədə təhlükəsizlik tədbirləri görülmədən yandırılan və söndürülməmiş ocaq, meşəyə atılan kibrit və ya söndürülməmiş siqaret kötüyü, günəş şüasının qızdıraraq otları yandıracaq qədər isitdiyi şüşələr böyük yanğınlara səbəb ola bilər. Bir meşənin yanması orada yaşayan minlərlə canlının tələf olması, atmosferin çirklənməsi, dolayısı ilə insanlara təhlükədir.

***Lalə Mehralı***

SƏS

13 oktyabr
2023-cü il

# "Mənzil bazarında qiymət artımları müşahidə olunub"



***"Mənzil bazarında qiymətləri birbaşa tələbin dəyişməsi müəyyənləşdirir. Son illərdə isə mənzillərə olan tələbin artmasını müşahidə edirik ki, bu da qiymət artımına səbəb olur". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov deyib.***

## İQTİSADÇI-EKSPERT MÜNASİBƏT BİLDİRDİ

V.Bayramov qeyd edib ki, Rusiya-Ukrayna müharibəsi bütövlükdə regionda mənzillərə tələbin artmasına gətirib çıxarıb. 2022-ci illə müqayisədə qiymət artımları səngisə də, 2023-cü ilin geridə qalan aylarında da mənzil bazarında qiymət artımları müşahidə olunub. Tikinti materiallarının uzun müddət qiymətinin aşağı olması mənzil qiymətlərinə, eləcə də bu uzunmüddətli bir zaman çərçivəsində mənzil bazarına öz təsirini göstərə bilər".

***Səbinə Hüseynli***

# "Nar" BMT Qlobal Sazişi çərçivəsində "Uniting Business Europe 2023" tədbirində iştirak edib

Korporativ sosial məsuliyyət prinsiplərinə sadiq qalan və Birləşmiş Millətlər Təşkilatının (BMT) Qlobal Sazişinin üzvü olan "Nar""Uniting Business Europe 2023" (UBE) tədbirində iştirak edib. BMT Qlobal Sazişi və BMT Qlobal Sazişinin Gürcüstan Şəbəkəsi tərəfindən təşkil edilən UBE 2023inkişafı qiymətləndirmək, problemləri müəyyən etmək və BMT-nin 2030-cu Dayanıqlı İnkişaf Gündəliyində qeyd olunan Dayanıqlı İnkişaf Məqsədləri (DİM) istiqamətində fəaliyyəti təşviq etmək üçün maraqlı tərəfləri bir araya toplayıb.

"Nar"ın İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiyalar Departamentinin rəhbəri Əziz Axundov "Nar"ın Sazişin prinsiplərinə sadiqliyini vurğulayaraq qeyd edib: "Nar DİM-lərə nail olmaq üçün qlobal səylərə töhfə verən "Uniting Business Europe 2023"-ün bir hissəsi olmaqdan qürur duyur. Bu istiqamətdəki məsuliyyətlərini tam olaraq anlayan bir telekommunikasiya şirkəti kimi biz bu məqsədləri biznes strategiyalarımıza və təcrübələrimizə fəal şəkildə inteqrasiya edirik".

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Sirkənin orqanizm üçün hansı faydaları var?



## MÜTƏXƏSSİS AYDINLIQ GƏTİRDİ

"Sirkənin payız və qış aylarında orqanizm üçün əvəzsiz faydaları var. Təsadüfi deyil ki, formalaşmış Azərbaycan mətbəxində sirkənin böyük rolu var". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Ağa Salamov deyib. Onun sözlərinə görə, sirkə immun sisteminin gücləndirilməsində qalxan rolunu oynayır: "Tərkibində olan antioksidan və minerallar səbəbilə insanın xəstələnməsinin qarşısının alınmasında mühüm rol oyanır. Eyni zamanda, sirkə dərinin gözəlləşməsinə də öz müsbət təsirini göstərir.

Qeyd etmək lazımdır ki, sirkə pis xolesterinləri parçalayır və kökəlmənin qarşısını alır. Lakin bu, o demək deyil ki, istənilən zaman sirkə içmək mümkündür. Gün ərzində 3 dəfə sirkəli su içilə və yeməklərə əlavə edilərək qəbul edilə bilər. A.Salamov qeyd edib ki, allergik reaksiyalara həssas insanlar və mədə-bağırsaq sistemində problemi olanların həkim məsləhəti olmadan qəbul etməsi məsləhət görülmür".

***Səbinə Hüseynli***

# "Mançester Siti" Pep Qvardiola ilə müqaviləni yeniləyəcək

***"Mançester Siti"nin baş məşqçisi Pep Qvardiola daha bir neçə il bu klubu çalışdıra bilər. Belə ki, ingilis klubu ispaniyalı mütəxəssislə hazırkı müqaviləni uzada bilər. Bu barədə nsayder Nikolo Şkira məlumat yayıb. Klubun mütəxəssislə yeni müqavilə bağlamaq istədiyi qeyd olunub. Mançester təmsilçisinin yaxın həftələrdə danışıqlara hazır olduğu vurğulanıb.***



Yeni müqavilə imzalanacağı təqdirdə, bu, 2027-ci ilə qədər qüvvədə olacaq. Qeyd edək ki, Qvardiola 2016-cı ildən "Mançester Siti"ni çalışdırır.


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000